الله
رسول
محمد

HARUN YƏHYA
(ADNAN OKTAR)

DARVİNİN TÜRK DÜŞMƏNÇİLİYİ

HARUN YƏHYA (ADNAN OKTAR)

DARVİNİN TÜRK DÜŞMƏNÇİLİYİ

Darvinizmin irqçilik və müstəmləkəçilikdəki dağıdıcı rolunun tarixi həqiqətləri.

Mündəricat

1 OXUCUYA 4

2 YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA 6

3 Giriş 9

4 Müstəmləkəçilik məntiqi və sosial darvinizm 12

5 İngilis müstəmləkəçiliyi və Osmanlı 33

6 Darvinin Türk millətinə baxışı 54

7 Türk millətinin şərəfli tarixi 62

8 Türk düşmənliyinin günümüzə əks olunması 92

9 Kommunizmə açılan qapı: Darvinizm 103

10 Nəticə 118

11 TƏKAMÜL YALANI 120

12 Ədəbiyyat 158

FƏSİL

OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

Giriş

Siyasi tarixə baxdığımızda fərqli ideologiyaların bəzən "elmi" əsaslar tapmağa çalışdıqlarını görürük. İddialı siyasi nəzəriyyələrlə ortaya çıxan ideoloqlar iddialarının "elmi" olduğunu irəli sürmüş və bu ad altında güvən və ya leqallıq qazanmağa çalışmışdılar. Məsələn, Karl Marks və Fridrix Engels doğru olmamasına baxmayaraq, kommunist ideologiyanı yazarkən tamamilə "elmi" nəzəriyyə irəli sürdüklərini iddia etmişdilər.

Əlbəttə, özünü "elm" elan edən tək ideologiya kommunizm deyil. Eynilə, irqçilik və faşizm də "elm" iddiası ilə ortaya çıxmışdır. Hitler Alman irqinin bütün irqlərdən üstün olduğu barədə yanlış düşüncəyə əsaslanaraq, almanların və digər irqlərin kəllə sümüklərini və ya oxşar fiziki quruluşlarını ölçərək ideologiyasını guya bioloji baxımdan sübut etməyə çalışmışdı. Bənzər elm iddiaları digər irqçi ideoloqlar tərəfindən də təkrarlanmışdı.

Bunlar siyasi tarixin məşhur nümunələridir. Ancaq biz bu kitabda bunlar qədər məşhur olmayan, əslində böyük əhəmiyyəti olan və xüsusilə Türk milləti ilə yaxından əlaqəli başqa nümunəni nəzərdən keçirəcəyik. Araşdıracağımız ideologiya "Türk düşmənçiliyi"dir. Bu konsepsiya son bir neçə əsrdə bəzən ideologiya, bəzən də siyasi münasibət kimi Qərb dünyasına təsir etmişdir.

Türklərə qarşı düşmənçilik ilk olaraq Osmanlı imperiyasının durğunluq dövründə "Türklər Avropadan silinməlidir" deyən bəzi Avropa dövlət adamları ilə başlamış və daha sonra Osmanlı imperiyasını parçalamağı hədəfləyən 19-cu əsr imperializminin əsas fikirlərindən biri olmuşdur.

Özlərini “qabaqcıl və mədəni millətlər” olaraq görən bəzi avropalılar Türk millətini və mədəniyyətini mümkün qədər uzaq coğrafiyaya qədər sürülməli olan guya “geridə qalmış və qaba” bir ünsür olaraq görürdülər. Xüsusilə 19-cu əsrin sonu və 20-ci əsrin birinci rübündə bu antitürk fikirlər Avropa paytaxtlarında böyük təsir göstərmişdir. Akademik Enver Ziya Karalın fikrincə, o dövrdə avropalılar arasında yayılmış bu yanlış düşüncənin məğzi budur:

> *“Türklər sarı irqə məxsusdurlar. Turan mənşəlidirlər. Köçəri və qəddar qrupdur. Hər cür dəyişikliyə və tərəqqi fikirlərinə qarşıdırlar.”1*

Bu fikrin tarixin əvvəlki dövrlərdən qalmış yanaşma olduğunu düşünmək böyük yanlış olardı. Çünki bəzi Qərb dairələrində bu gün də türklərə qarşı düşmənçilik çox aktivdir. Almaniya başda olmaqla Qərb ölkələrində Türk azlıqlara qarşı şiddət törədən və həssas Türk soydaşlarımızı vəhşicəsinə qətlə yetirən neonasistlər və buna bənzər faşist qruplar, Türk düşmənçiliyini ideologiya kimi mənimsəyiblər. Avropa ölkələrinin müxtəlif beynəlxalq siyasi platformalarında Türkiyəyə qarşı nümayiş etdirdikləri ön mühakimənin təməlində 19-cu əsrdən miras qalan Türk düşmənliyi dayanır.

Bir sözlə, Türk düşmənçiliyi bir ideologiya olaraq hələ də mövcuddur və yaşayır.

Bu məqamda mövzunun maraqlı tərəfinə diqqət yetirməliyik. Başlanğıcda fərqli ideologiyaları guya “elmi” görüntü verməyə çalışdıqlarını qeyd etdik. Görəsən eyni vəziyyət Türk düşmənçiliyi üçün də keçərlidir? Bu fikrin arxasında da ona “elm” pərdəsi əlavə edən amil vardır?

Bu sualın cavabını növbəti səhifələrdə araşdıracağıq. Və bir çox insanın bu vaxta qədər fərq etmədiyi, amma həqiqətən, vacib əlaqəni ortaya qoyacağıq. Bu, darvinizmlə Türk düşmənçiliyi arasındakı əlaqədir...

Təkamül nəzəriyyəsinin qurucusu Darvin Türk millətini öz səhvlərinə görə "yarı meymun aşağı irqi" olaraq müəyyən edən və onun məhv edilməli olduğunu müdafiə edən fanatik Türk düşmənidir. Üstəlik, nəzəriyyəsi ilə də Türk düşmənçiliyi üçün guya "elmi" əsas qazanmışdır. Bugünkü neonasistlər Darvinin Türk milləti ilə bağlı xəyallarından güc tapırlar.

Unutmamaq lazımdır ki, faşizm və kommunizm başda olmaqla bütün dini əxlaqi dəyərlərə uymayan ideologiyalar milli birlik, bütövlük və mənəvi dəyərləri hədəf alır. Kommunistlər və faşistlər vətəninə, bayrağına, millətinə deyil, öz şəxsi maraqlarına bağlıdırlar. Millətin xoşbəxtliyi üçün deyil, öz xoşbəxtliyi üçün çalışırlar. Ulu Öndərimizin bizə öyrətdiyi və qoyduğu vəsiyyət milli və mənəvi dəyərlərə sadiq olan, vətənini, bayrağını və millətini sevən, milli mənəvi inanclara sahib olan və müqəddəsliyini qorumaq üçün lazım gəlsə canını verə bilən insanlar olmaqdır. Atamız bizi və bizdən sonrakı nəsillərin dindar, milliyyətçi, vətəni və bayrağı üçün həyatını qurban verən, millətinin xoşbəxtliyi üçün çalışan və ailənin müqəddəsliyini qoruyan insan olmasını istəyir. Materialist düşüncə isə Atamızın bizə müqəddəs olduqlarını öyrətdiyi bu dəyərlərə qarşıdır. Bu səbəbdən, milliyyətçi və vətənpərvər insanlar yalnız bu iki ideologiyaya qarşı deyil, bütün materialist sistemlərə və ideologiyalara qarşı fikri mübarizə aparmalı və məkrli mərkəzlərin çirkin hiyləgər hərəkətlərinə diqqət yetirməlidirlər.

> *Ulu Öndərimiz Kamal Atatürk bunları demişdir:*

> *..Xeyr, nə kommunizm, nə də faşizm... Bu iki ideologiyanın heç biri ölkəmizin, millətimizin həqiqətlərinə və xarakterlərinə uyğun deyil. Əlavə edim ki, nə faşizmin, nə də nasizmin sonu yoxdur. ("Atatürkün İzinde Bir Ömür Böyle Geçti", Sabiha Gökçen, səh. 159)*

FƏSİL

Müstəmləkəçilik məntiqi və sosial darvinizm

İmperializm və ya başqa sözlə müstəmləkəçilik müasir tarixdəki coğrafi kəşflərlə başlamışdır. 15-16-cı əsrlərdə bəzi avropalılar əldə etdikləri hərbi texnika ilə digər qitələrə yayılmağa başladılar. Güclü donanmadan, odlu silahlardan və nizam-intizamlı ordulardan istifadə edərək dünyanın ucqar bölgələrini işğal etdilər və sözün əsl mənasında bu bölgələri "istismar etməyə" başladılar.

Xristofor Kolumb

İlk kolonistlər portuqaliyalılar və ispanlar idilər. Xüsusilə, bu iki ölkə Xristofer Kolumbun Amerikanı kəşf etməsindən sonra müasir dünyanın ilk müstəmləkə imperiyaları olaraq tarix səhnəsinə çıxdılar. Qısa müddətdə Amerika qitəsinin cənubunu müstəmləkə etdilər. Burada yaşayan və mənşəcə dinc təbiətə sahib olan yerli xalqı kölə etdilər. Zorla

çalışdırdıqları bu insanlardan Amerika qitəsinin bütün qızıl və gümüş sərvətlərini talan etmək üçün istifadə etdilər.

İspaniya və Portuqaliyanı digər Avropa ölkələri də izlədilər. 17-ci əsrdə Hollandiya güclü müstəmləkə ölkəsi olaraq rəqabətə qatıldı. İngiltərə Hollandiyanı izləməyə başladı. Bu iki yeni müstəmləkəçi güc həm Amerika qitəsinə, həm də Uzaq Şərqə müdaxilə etdilər. 18-ci əsrdə İngiltərə dünyanın ən böyük müstəmləkə imperiyasına çevrildi. Fransa və Belçika da vaxt keçmədən rəqabətə qatıldı. 19-cu əsrdə Amerika qitəsinin çox hissəsi, demək olar ki, bütün Afrika və Uzaq Şərqin bir çox ölkəsi bu Avropa dövlətlərindən birinin müstəmləkələri idi. Bu ölkələr müstəmləkəçilər tərəfindən təyin olunmuş "Baş qubernatorlar" tərəfindən idarə olunurdu. Müstəmləkə ölkələrindəki rəhbərlər bu ölkə xalqının səmərəli işləmələrinə və təbii sərvətlərini səmərəli şəkildə Avropaya aparılmasına diqqət yetirirdilər. Buna görə 19-cu əsr demək olar ki, "müstəmləkəçi əsr" idi. Əslində, yeni tarixlə məşğul olan bir çox alimin etiraf etdiyi kimi, birinci dünya müharibəsi bu müstəmləkələrin bölünməsi üçün gedən mübarizədən doğmuşdu.

Müstəmləkəçilik iqtisadi və siyasi sistem idi və bu mənfəətlər üçün istifadə edilirdi. Ancaq bu sistemin "mədəniyyət" tərəfi də var idi.

Bunu belə izah edə bilərik: Müstəmləkə ölkələri bayaq dediyimiz kimi açıq şəkildə talan edirdilər. Heç bir haqları olmayan bir ölkəni zorla ələ keçirirdilər, daha sonra bu ölkədəki insanlara təzyiq edirdilər və ölkənin qaynaqlarını ələ keçirirdilər. Ancaq əlbəttə ki, bu müstəmləkə ölkələri özlərinin "yırtıcı" kimi görünmələrini və tarixdə belə yazılmalarını istəmirdilər. Bu səbəbdən də özlərinə haqq qazandırmağa çalışdılar. Onları haqlı göstərəcək bəzi izahlar verməyə başladılar.

Bəs bu izah nə idi? Bir ölkəni və milləti kölə etmək üçün hansı örtük edilə bilərdi?

Müstəmləkəçilər bu cavabı ilk gündən etibarən tapmışdılar. Etdikləri işlərin qanuni görünməsi üçün örtük tapmaq üçün yeganə yol hədəf aldıqları insanları "qaba insanlar" və ya hətta "heyvana bənzər canlılar" kimi göstərməkdir. Bu elmi olmayan fikir qəbul olunsaydı, özlərinin "qabaqcıl insanlar" olaraq bu "geridə qalmış" cəmiyyətlərə rəhbərlik etmələri tamamilə ağlabatan bir hərəkət olacaqdı.

Müstəmləkəçiliyi qanuniləşdirmək üçün istifadə ediləcək bu məntiq müstəmləkəçiliyin yaranma mərhələsində, yəni Kolumbun Amerika səfəri zamanı ortaya atıldı. Bu elmi və məntiqsiz iddiaya görə, yerli amerikalılar həqiqi insanlar deyil, çox inkişaf etmiş heyvanlar idilər.

Bu səhv əvvəlcə Xristofer Kolumb və adamları tərəfindən irəli sürülmüş və daha sonra Cənubi Amerikanın müstəmləkəçiliyini öz üzərinə götürən İspan müstəmləkələri tərəfindən müdafiə edilmişdi. Əslində Katolik kilsəsi qızıl, şöhrət və torpaq axtaran bu talançılara qarşı mövqe tutmuşdu. Bunun ən məşhur nümunəsi Chiapas yepiskopu Bartolome de Las Casas idi ki, Kolumb ilə birlikdə yeni dünyaya ayaq basan kolonistlərin "yerli sakinlər bir növ heyvandırlar" iddiasına qarşı yerli sakinlərin "həqiqi insanlar" olduqlarını müdafiə etmişdir. Bu səbəbdən Las Casas "yerlilərin elçisi" kimi tanınmağa başlanmışdı. Daha sonra, 1537-ci ildə Papa III Paul nəşr etdiyi Sublimis Deus adlı fərmanında müstəmləkə vəhşiliyini qınamış, hinduların həqiqi insanlar olduqlarını (veros homines), onları kölə səviyyəsinə endirənləri inancsız insanlar elan etmişdi.2

Bu cür etirazlara görə kolonistlərin yerli insanlara "bir növ heyvan" kimi baxması barədə elmi olmayan iddiası uzun müddət mübahisəli olaraq qaldı. Müstəmləkəçilər ağılsız tezislərini müdafiə etməkdə təkid edirdilər, lakin bütün insanlar Allah tərəfindən bərabər şəkildə yaradılmış və hamısı bir atadan, hz. Adəmdən (ə.s) gəldiyini qəbul edən kilsənin təsiri

Avropada bir müddət davam etdi. Lakin Avropa cəmiyyətlərinin dindən və materialist dünyagörüşündən getdikcə uzaqlaşması tarazlığı müstəmləkəçilərin lehinə dəyişdirirdi.

19-cu əsr: Müstəmləkəçiliyin zirvəsi

19-cu əsr siyasi mənada müstəmləkəçilik əsri kimi təyin oluna bilər. Çünki bu dövrdə müstəmləkə ölkələri tarix boyu əldə edə bilmədikləri geniş torpaqlara qovuşdular. Xüsusilə İngiltərə və Fransa Afrikadan Hindistana qədər uzanan nəhəng coğrafiyaya hakim oldular.

19-cu əsr bu siyasi mənzərə ilə yanaşı fəlsəfi mənada da böyük bir dəyişiklik yaşamışdır. Bu pisləşmənin təməlində materializm dayanır. Bu əsrdə Avropada xristian mədəniyyətinə qarşı əsrlər boyu davam edən müharibə hökm sürdü və Allahın varlığını inkar edən və yalnız maddəni mütləq varlıq kimi qəbul edən materializmin illüziyası mədəniyyət və elm dünyasına tamamilə hakim oldu.

Maraqlısı budur ki, 19-cu əsrin fərqli kimi görünən bu iki xüsusiyyəti, yəni müstəmləkəçilik və materializm əslində bir-biri ilə sıx əlaqəlidir. Avropanın həyata keçirdiyi siyasi strategiya olan müstəmləkəçilik fəlsəfi əsasını materializmdə tapmışdır.

Bunun təfərrüatlarını növbəti səhifələrdə araşdıracağıq. Ancaq ilk növbədə bu əlaqənin əsas məntiqini izah etmək faydalıdır. Müstəmləkəçiliyin tarixdəki inkişafından bəhs edərkən, bu sistemin müəyyən qanunauyğunluq axtarışında olduğunu da bildirmişdik. Çünki müstəmləkəçilik əxlaqsız sistemdir. Müstəmləkəçilik müəyyən insanların haqlarının əlindən alınmasına, ədalətsizliyə, təzyiq və zülmə əsaslanan sistemdir və insanlığa həqiqəti, dürüstlüyü, ədaləti, sülhü və qardaşlığı diktə edən əxlaqi meyarlarla açıq-aşkar ziddiyyət təşkil edir. Bu əxlaqi meyarların mənbəyi dindir. Çünki yalnız din insanlara ədalətin,

dürüstlüyün və doğruluğun müqəddəs olduğunu öyrədir və yalnız dindarlar bu əxlaqi meyarlar üçün lazım olduqda maraqlarından imtina etməyi əmr edirlər.

Bu bizə müstəmləkəçilik anlayışı ilə dinin gətirdiyi əxlaqi anlayış arasında böyük ziddiyyət olduğunu göstərir. Kolumb ilə digər İspan kolonistləri və kilsə arasındakı ziddiyyət bu qaydanın Avropa tarixindəki ifadəsidir.

Ancaq bayaq da bildirdiyimiz kimi, Avropa tədricən dindən uzaqlaşmış və dinə zidd olan materializm XIX əsrdə çox geniş yayılmışdır. Bu səbəbdən 19-cu əsr Avropa müstəmləkəçiliyinin inkişafı üçün ideal mədəni mühit idi. Bütün insanların Allah tərəfindən yaradılan bərabər varlıqlar olduğu və bir-birilərinə qarşı Allahın bildirdiyi əxlaq qaydalarına uyğun davranmalı olduqları inkar edilincə müstəmləkəçiliyin inkişafı üçün zəmin yaranmışdır.

Avropa cəmiyyətləri bütün insanların Allahın yaratdığı bərabər qullar olduqlarından uzaqlaşdıqca, insan irqlərindən bəzilərinin (yəni özlərinin) "irəli", bəzilərinin isə "geridə" olduğuna inandılar. Yaradılış həqiqətinin rədd edilməsi irqçiliyə səbəb oldu.

> Amerikalı alim James Ferguson "New Scientist" jurnalında "İrqçiliyin laboratoriyası" adlı məqaləsində irqçiliyin yaranmasının Yaradılışın rədd edilməsi ilə əlaqəsini belə izah edir:

> *"19-cu əsrdə Avropada inkişaf edən ictimai elmlər irq anlayışı ilə iç-içə idi... İnkişaf etməkdə olan yeni antropologiya insanın mənşəyi ilə bağlı iki zidd düşüncə məktəbinin döyüş meydanına çevrildi. Bunlardan daha yaşlı və daha köklü olan "monoqenizm" (monoqoniya) idi. Monoqenizm bütün insanların rəng və xüsusiyyətlərində heç bir fərq olmadan birbaşa Adəmin nəslindən olduqları və Allahın tək hərəkəti ilə yaradıldığı inancına əsaslanırdı. Monoqenizm kilsə tərəfindən müdafiə olunurdu və 18-ci əsrə qədər qəbul edilirdi. Bununla birlikdə, bu dövrdə dini hakimiyyətə qarşı çıxmaqdan qaynaqlanan "poliqenizm" kimi tanınan rəqib nəzəriyyə inkişaf etdi. Poliqenizm fərqli insan irqlərinin fərqli köklərə sahib olduğunu müdafiə edirdi."3*

“Fərqli insan irqlərinin fərqli kökləri var” iddiasının elmi əsası təkamül nəzəriyyəsi idi...

Təkamül və irqlər

Antik dövrlərdən bəri materialist filosofların müdafiə etdiyi təkamül fikri XVIII əsrin sonunda Avropanın gündəminə gəldi. Jean B. Lamarck, Georges de Buffon və Erasmus Darvin (Çarlz Darvinin babası) kimi adamların irəli sürdüyü təkamül nəzəriyyəsini hərtərəfli irəli sürən Çarlz Darvin idi. Darvin o vaxta qədər biologiya elmində “Allah canlı növlərini ayrı-ayrı yaratmışdır” dediyini heç bir elmi tapıntı və ya məlumat olmadan geniş qəbul etmiş və bütün növlərin təsadüfən bir-birindən inkişaf etdiyi yanılmasını irəli sürmüşdür. Darvinin elmi olmayan iddiasına görə, balıqların əcdadları qurd, quşların əcdadları sürünənlər, insanların əcdadları meymunabənzər canlılar idi.



Çarlz Darvin və kitabı “Növlərin mənşəyi”nin üz qabığı

Elmi tapıntılara deyil, xəyal gücünə əsaslanan bu nəzəriyyə qısa müddətdə çox sayda tərəfdar qazandı. Bu tərəfdarların ortaq xüsusiyyəti elmi baxımdan deyil, ideoloji ön mühakimə ilə davranmaları idi. Çünki Darvin canlıların və insanların Allah tərəfindən yaradıldığını inkar edərək hər cür ateist dünya görüşünün təməlini qoymuşdur. Bu səbəbdən biologiya elmi ilə heç bir əlaqəsi olmayan bəzi insanlar Darvinin ən qatı vəkilləri oldular. Məsələn, kommunizmin qurucusu olan Karl Marks Darvinin öz sözləri ilə desək "qatı pərəstişkarı" idi.

Təkamül nəzəriyyəsi ümumiyyətlə materialist dünyagörüşünü dəstəkləsə də, xüsusilə müstəmləkəçiliyin zəminini qoymuşdu. Təkamül nəzəriyyəsini irəli sürənlər və müdafiə edənlər, Çarlz Darvin başda olmaqla bəzi insan irqlərinin təkamül müddətində daha inkişaf etmiş olduğu yalanını irəli sürdülər. Darvin 1859-cu ildə nəşr olunan məşhur "Növlərin mənşəyi" kitabında insanın mənşəyi mövzusundan az bəhs edirdi. Ancaq bu kitaba qoyduğu alt yazı belə insanlığa irqçi dünyagörüşü ilə baxdığını göstərirdi: "Növlərin mənşəyi və təbii seleksiya və həyat mübarizəsində sevilən irqlərin qorunması."

Darvin 1871-ci ildə nəşr olunan "İnsanın törəməsi" kitabında "üstünlük verilən irqlər" ifadəsi ilə Avropalı ağ irqlərini nəzərdə tutduğunu və elmi olmayan şərhlərinə görə digər irqləri "yarı meymun ibtidai canlılar" olaraq gördüyünü açıq şəkildə bildirmişdi. Darvin bu kitabda insanın guya meymunlarla ortaq ataya sahib olduğunu, ancaq insan irqlərinin fərqli təkamül proseslərini izlədiyini iddia edirdi. Darvinin heç bir elmi əsası olmayan iddiasına görə, bəzi irqlər təkamüldə çox inkişaf edərkən, bəziləri də meymunlara yaxın səviyyədə idilər. Darvinin "inkişaf etmiş irqlər" olaraq qəbul etdiyi şey, təbii ki, avropalı "Ağ insanlar" idi. Ona görə ağ insan fiziki və zehni olaraq digər irqlərdən çox öndə idi. Bu fərqə olan inancı "fərqli irqlərin zehni xüsusiyyətlərinin bir-birindən çox fərqli

olduğunu; bu həm duyğusal, həm də intellektual qabiliyyətlərində özünü göstərir "deyərək ifadə edirdi.4

Benjamin Farrington "Darvin həqiqətən nə dedi? (What Darwin Really Said?)" adlı kitabında Darvinin irqçi düşüncələrini vurğulamış və Darvin "İnsanın törəməsi" adlı kitabında "qeyri-bərabər insan irqləri" haqqında çox uzun açıqlamalar verdiyini bildirmişdi.5

Ancaq Darvinin bu mövzuda elmi olmayan fikirlərinin ən vacib tərəfi "geridə qalmış irqlər"in nə olduqlarına dair irrasional şərhləri idi. Bir insanın bəzi irqlərin digərlərindən "daha inkişaf etmiş" olduğu fikrinə sahib olsa belə, "qabaqcıl" irqlərin "geri" qalanlara kömək etməli və inkişafına töhfə verməli olduğuna dair insani nəticəyə gələ bilərdi. Ancaq Darvin belə düşünmürdü. Əksinə, "qabaqcıl" irqlərin "geri"dəki irqləri əsarət altına alması və ya hətta məhv etməsi barədə vəhşicəsinə düşüncəsini müdafiə edirdi. "İnsanın törəməsi" kitabında belə yazırdı:

> *"Bəlkə də əsrlər boyu davam etməyəcək yaxın gələcəkdə mədəni insan irqləri vəhşi irqləri yer üzündən tamamilə silib əvəz edəcək. Digər tərəfdən insanabənzər meymunlar... şübhəsiz ki, aradan qaldırılacaqdır. Beləliklə, insanla ən yaxın qohumları arasındakı uçurum daha da genişlənəcəkdir..."6*

Darvin bu məntiqsiz və elmi olmayan nəticəyə "yaşamaq üçün mübarizə" anlayışı ilə gəlmişdi. Darvin bu konsepsiyanı ilk növbədə təbiətə bağlamışdı. Bunun konkret tapıntıları olmasa da, təbiətdəki canlılar arasında şiddətli həyat mübarizəsi olduğunu, hər fərdin yalnız öz maraqları və həyatı üçün çalışdığı və başqaları ilə mübarizə apardığını iddia etmişdi. Darvin iddiasına görə, bu yaşamaq uğrunda zəif fərdlər ortadan qalxarkən, güclü və uyğun quruluşa sahib fərdlər seçilib sağ qalırdı. Ancaq gələcəkdə təbiətdə aparılan müşahidələr bu iddianın doğru olmadığını, canlılar arasında çox güclü həmrəylik mexanizminin

olduğunu və əksər canlıların öz qrupları üçün özlərini qurban verdiklərini ortaya qoyacaqdı.7

Lakin Darvin özünü "yaşamaq üçün mübarizə"nin universal qanun olduğuna inandırmışdı. Daha sonra təbiətdəki canlılar üçün yazdığı bu elmi olmayan ssenarini insan cəmiyyətlərinə bağlamışdı. İnsan irqlərinin yaşamaq üçün şiddətli mübarizə apardığını düşünürdü. Üstəlik, böyük cəhalət içində bu mübarizənin təkamül tərəqqisi üçün lazım olduğunu, yəni bəzi insan irqlərinin məhv edilməsinin bəşəriyyətin irəliləyəcəyinə səbəb olacaq proses olduğunu müdafiə edirdi.

Təkamül nəzəriyyəsinin insan cəmiyyətlərinə tətbiqi ilə ortaya çıxan bu irqçi düşüncə "Sosial darvinizm" adlandırılırdı. 19-cu əsrdəki bütün irqçi fikirlər də sosial darvinizmdən ilham alırdı. Bu irqçilərin başında isə "ağ insanın üstünlüyü"nü müdafiə edən müstəmləkəçilər var idi. Müstəmləkəçilik Xristofor Kolumbun dövründən bəri "yerlilər bir növ heyvandırlar" yalanına elmi əsas vermiş olurdu. Bu səbəbdən Darvin nəzəriyyəsi qısa müddətdə müstəmləkəçiliyi dəstəkləyən dairələrdən böyük dəstək aldı. Hindistanlı antropoloq Vidyarthi bunu belə izah edir:

> *"Darvin tərəfindən irəli sürülən "ən güclülərin həyatda qalması" fikri insanların mədəni təkamül prosesi keçdiyinə və ən yüksək mərtəbənin ağ insanın mədəniyyətinə sahib olduğuna inanan sosial elm adamları tərəfindən coşğuyla qarşılandı. Nəticədə, 19-cu əsrin ikinci yarısında qərbli alimlərin böyük əksəriyyəti irqçiliyi qəti şəkildə qəbul etdilər."8*

Sosial darvinizm və müstəmləkəçilik

Günümüzdə təkamül nəzəriyyəsinin qabaqcıl tərəfdarlarından biri Harvard universitetinin paleontoloqu prof. Stephen Jay Gould Darvinin "Növlərin mənşəyi" kitabı haqqında deyir: "Bundan sonra kölelik, müstəmləkəçilik, irqi fərqlilik, sinif quruluşu və cinsiyyətin rolu ilə bağlı mübahisələr artıq elm adı altında aparılacaq." Həqiqətən,

sadaladığı bu anlayışlar, Darvinizmin gəlişindən sonra "Sosial darvinizm" adı altında guya elmi görünüş qazandı.



Yan tərəfdə Stephen Jay Gouldun Darvnin "Növlərin mənşəyi" adlı kitabı haqqındakı fikirlərinə yer verdiyi kitabının üz qabığı, altdakı isə Stephen Jay Goulddur.

Əlbəttə ki, işğal, istismar, təzyiq və zülm həmişə bəşər tarixinin bir hissəsi olmuşdur. Ancaq təkamülçülərin özlərinin də etiraf etdiyi kimi, Darvinin irəli sürdüyü nəzəriyyə sayəsində bu əxlaqsız hərəkətlərin haqlı və qanuni olaraq göstərilə biləcəyi əsas tapılmışdı. Bu nəzəriyyənin və Darvindən sonra ortaya çıxan irqçi təlimlərin təməlində duran "güclünün sağ qalması" yanılması ilə müstəmləkəçiliyin və hər hansı digər zalım sistemin haqlı ola biləcəyi bir düstur ortaya çıxmışdı.

> *Darvin irəli sürdüyü və heç bir elmi dəyəri olmayan bioloji təkamül prinsiplərinin insan cəmiyyətinə tətbiq olunacağını proqnozlaşdırmışdı. Məsələn, 1869-cu ildə H. Thielə yazdığı məktubda belə demişdi:*

> *"Növlərin dəyişməsi ilə əlaqədar istifadə etdiyim perspektivə bənzər fikirlərin mənəvi və sosial problemlər üzərində tətbiq olunduğunu görürəm və bu mövzu ilə çox maraqlandığıma inanmalısınız. Əvvəlcə düşüncələrimin belə müxtəlif və vacib məsələlərə tətbiq olunacağına inanmamışdım."10*

Beləliklə, təkamülçülərin istifadə etdiyi təbii seçmə və uyğunlaşma kimi terminlər antropologiya, sosiologiya, tarix və fəlsəfə hüdudlarında araşdırılmağa başlandı. Ortaya çıxan elmi olmayan doktrinaya "Sosial darvinizm" adı verildi.

Sosial darvinizmin çox təhlükəli səhvləri belədir: Yer üzündə insanlar, irqlər, millətlər və sivilizasiyalar həyatda qalma mübarizəsinə başlamış və bu səbəblə başqaları ilə böyük rəqabətə girmişlər. İnkişaf etmiş sivilizasiyalar əcdadlarından dəyərli xüsusiyyətlər götürmüşlər və bu, onları başqalarından üstün edən bir imtiyazdır. Az inkişaf etmiş mədəniyyətlər tezliklə yox olacaq və buna məhkumdurlar. Buna görə də, təbiətin nizamı güclü və mədəni xalqların zəiflərin əlindəki mənbələrdən istifadə etmələrini tələb edir. Bunu edərkən hər yol və metod sərbəstdir, əxlaqi dəyərlərə ehtiyac yoxdur. Bütün dünyada mədəni xalqlar, irqlər və fərdlər özlərindən geri qalanları idarə etmək və istismar etmək hüququna malikdirlər. Bu təbiətə xas olan qanundur.

Bəzi təkamülçülər bu gün sosial darvinizmi "Darvinizmin yalançı təfsiri" kimi göstərməyə çalışırlar və Darvinin əslində irqçi olmadığı şəklini verməyə çalışırlar. Halbuki, həqiqət tam əksinədir. Sosial darvinizm Darvinin özünün əsəridir. Alman tarixçi Hans Ulrich Wehler bu həqiqəti "ilk sosial darvinistin Darvin özü olduğunu" deyərək izah edir:

> *"Darvin nəzəriyyələrinin insan cəmiyyətinə tətbiq olunmasının sübutu olaraq Avropada və xüsusən Amerikada "Aryan" irqinin yüksəlişini daha da inkişaf etdirən və nümayiş etdirən ilk sosial darvinistdir. Bu şəkildə sosial darvinizmin irqçi şərhinə belə yol açdı."11*

Benjamin Farrington "What Darwin really said?" adlı əsərində bu həqiqətə işarə edərək, Darvinin davamçılarını böyük fəlakətlərə yönəltdiyini deyir. Farringtonun dediyi kimi Darvinin səhv düşüncələri "insanın sosial, psixoloji və etik keyfiyyətləri miras qalacaq və təbii seleksiya qanununun əhatəsinə girəcəyi düşüncələridir. Bu fikirlər təhlükəli nəticələrə səbəb ola biləcək xəyalın məhsulu idilər"12

Təkamül nəzəriyyəsinin qabaqcıl tərəfdarlarından olan Stephen Jay Gould da eyni həqiqəti etiraf edir. Goulda görə "1859-cu ildən əvvəl irqçiliklə bağlı bioloji mübahisələr geniş yayılmışdı, lakin təkamül nəzəriyyəsi qəbul edildikdən sonra miqyası böyüdü."13

Sosial darvinizm sözdə elmi iddiaları ilə 19-cu əsr Avropa imperializminə axtardığı mədəni dəstəyi təmin etmişdir. Əsrlər boyu "hindistanlılar idarə ediləcək bir heyvan növüdürlər" yalanını müdafiə etməyə çalışan müstəmləkəçilik, ilk dəfə Darvin sayəsində bu böyük yalanın "elm" deyilən zəminini tapdı. Bu səbəbdən darvinizmin 19-cu əsr Avropa müstəmləkəçiliyi ilə, xüsusən İngilis imperializmi ilə iç-içə inkişaf etmiş nəzəriyyə olduğunu deyə bilərik. Nəzəriyyə imperializmə xidmət etmiş və bu xidmət üçün imperializmin "düşüncə mərkəzi" tərəfindən dəstəklənmişdir.

Kenneth J. Hsu İsveçrə Federal Texnologiya institutunun coğrafiya elmləri bölməsinin rəhbəri "Is Darwinism Science? (Darvinizm elmdir?)" adlı məqaləsində darvinizmin bu qaranlıq tərəfini belə vurğulayır:

> *"Müharibədən sonra sağ qalsaq da, insanlar, siniflər, millətlər və ya irqlər arasındakı rəqabətin həyatın təbii nəticəsi olduğunu və üstün olanın zəiflərin əmlakına sahib çıxmasını təbii hesab edən qəddar sosial ideologiyanın qurbanı olduq. Bu ideologiya 19-cu əsrdə və daha sonra elmin təbii qanunu, başqa sözlə, Çarlz Darvin tərəfindən 1859-cu ildə "Növlərin mənşəyi" adlı kitabında şiddətlə istinad edilmiş təkamül mexanizmi idi."14*

İmperializm yalnız Darvin dövründə deyil, sonradan sosial darvinizmdən də dəstək tapdı. Əslində, bu həqiqət bu batil ideologiyanı qəbul edən Çarlz Pearso-un sözləri ilə daha aydın görünür. Pearson "mədəni cəmiyyətlər arasındakı həyat uğrunda mübarizə elm, sənaye, sivilizasiya silahları ilə aparılır, ancaq alt millətlərə qarşı apardıqları həyat mübarizəsini topları ilə etmə hüququna sahib olduqlarını" deyir.15

Sosial darvinizm və vəhşi kapitalizm

Sosial darvinizm yalnız imperializmi deyil, həm də imperialist ölkələrin daxilində tətbiq edərək başqa ölkələrə ixrac etdiyi "vəhşi kapitalizmi" dəstəkləmək üçün istifadə edilmişdir.

Herbert Spencer

Vəhşi kapitalizm termini iqtisadiyyatda heç bir dövlət tənzimləməsinin aparılmadığı, zənginlərlə kasıblar arasında böyük boşluqların yaradılmadığı və sosial ədalət mexanizminin işləmədiyi iqtisadi sistemləri təsvir etmək üçün istifadə olunur. Belə sistemdə yoxsullara, imkansızlara və əlillərə dəstək verilmir və mərhəmət göstərilmir. Vəhşi kapitalizm hər fərdin özünü "xilas etmək" məcburiyyətində olduğunu və

bu vəhşi yarışda uğursuz olanların cəzalarını çəkməli olduqlarını düşünür.

Vəhşi kapitalizm 19-cu əsrdə çox təsirli olmuşdu. Sistem amansız şəkildə İngiltərədə tətbiq edilmişdi, buradakı varlı təbəqə yoxsulları amansızlıqla istismar edirdi. 8 yaşlı uşaqların gündə 16 saat kömür mədənlərində işlədildiyi və işçilərin yük heyvanları kimi istifadə edildiyi bu sistem, uzun və qanlı reaksiyalardan sonra zamanla yumşaldı və 20-ci əsrdə "sosial dövlət" anlayışına çevrildi. Ancaq günümüzdə də dünyada kapitalizmi radikal şəkildə müdafiə edən ideoloqlar var və bu sistem bəzi inkişaf etməkdə olan ölkələrdə hələ də yaşanır.

19-cu əsrdən bəri vəhşi kapitalizmə sözdə "elmi" dəstək verən tək konsepsiya yenə sosial darvinizmdir. Sosial darvinistlər "həyat mübarizəsi" yalanını irqlərə və millətlərə aid etdikləri "həyat mübarizəsi"ni cəmiyyətlər daxilindəki fərdlərə və siniflərə də aid etmişlər və vəhşi kapitalizmin "təbiət qanunlarına uyğun" sistem olduğunu iddia etmişdilər.

Vəhşi kapitalizmi təkamül anlayışları ilə açıq şəkildə dəstəkləyən ən məşhur şəxs Darvinin müasiri olan ingilis sosioloqu Herbert Spencer idi (1820-1903). Spencer darvinist doktrinanı böyük şövqlə qəbul etmiş və sonra bunu sosiologiyaya uyğunlaşdırmışdı. Cəmiyyətdəki bəzi insanların təbii olaraq digərlərindən üstün olduqlarını müdafiə etmişdi. Bu yanılmaya görə, zəiflər məhv olacaq, daha üstün olanlar isə bəşəriyyətin gələcəyini davam etdirəcəkdilər. Spencer yoxsulların, əqli cəhətdən zəif və digər bağımlıların xeyrinə həyata keçirilən sağlamlıq proqramlarının əhali artımını bəslədiyini və uzun müddətə cəmiyyətə zərər verəcəyini deyən böyük əxlaqsızlığı və amansızlığı müdafiə etmişdi. Üstəlik sanitariya (xalq sağlamlığının qorunması) tədbirlərinə, məcburi peyvəndlərə, öz sağlamlıqlarını nəzərə alaraq lazımi davranışı yerinə

yetirə bilməyəcək qədər “axmaq” insanların bunun nəticələrinə dözməyə məcbur olduqlarını deməkdən də çəkinməmişdi. Spencerin xəyallarına görə, ideal cəmiyyətdəki bu kimi sosial qanunlar; Kasıblara kömək etmək məqsədilə təkamülün təbii seleksiya qanunlarına zidd olan heç bir qanun olmayacaqdı.16

Spencerin yanlışlıqlarına görə eqoizm cəmiyyətlərdəki xəyali təkamül prosesinin ən vacib dinamikası idi. Məqalələrinin birində yazırdı: “İnsanlar həyatda qalacaq qədər inkişaf etmişlərsə, yaşayarlar və yaşamaları daha yaxşıdır. Yaşamağa dəyəcək qədər inkişaf etmədikləri təqdirdə ölərlər və ölmələri daha yaxşıdır.”17

Francis Galton

Sosial darvinizmi dəstəkləyənlərin bu amansız ifadələri şəfqətin, mərhəmətin, yardımın və fədakarlığın kənara atıldığı və insani dəyərlərin tamamilə itirildiyi darvinist məntiqi tam mənası ilə əks etdirir. Darvinizmin təhrif olunmuş məntiqi sosial darvinizmlə aydınlaşır və irqçilik, düşmənçilik, nifrət, müharibə və zülm kimi qeyri-insani hərəkatlarla ortaya çıxır.

Sosial darvinistlər cəmiyyətdə sosial ədalətin təmin edilməsi, yoxsullara və əlillərə kömək üçün edilən tənzimləmələrə də şiddətlə qarşı çıxaraq bunun "təkamül qanunlarına zidd olduğunu" deyirlər.

Məsələn, Çarlz Darvinin əmisi oğlu Francis Galton 1859-cu ildə nəşr etdirdiyi Hereditary Genius (İrsi zəka) kitabına sosial yardım proqramlarına qarşı çıxaraq başlamışdır. Eyni şəkildə, sosial darvinçi Tille "yoxsulluğun qarşısını alıb məğlub siniflərə kömək etmək, təkamülü təmin edən təbii yoxolma qanununa maneə olacaqdır" deyəcək qədər irəli getmişdir.18

Sosial darvinizmin ən məşhur nəzəriyyəçilərindən biri olan amerikalı professor E. A. Rossa görə "xristianlığın gətirdiyi sosial yardım və xeyriyyəçilik anlayışları axmaqların çoxalmalarına imkan verən qoruyucu qalxanın inkişafına səbəb olmuşdur." "Dövlət əlilləri, məsələn, kar-lalları qoruma altına alır və sonra çoxaldıb əlil irq yaradır". Bunların hamısına təbii təkamül inkişafına maneə törətdiklərinə görə qarşı çıxan Rossun fikrincə, "dünyanı cənnətə çevirməyin yeganə yolu" bütün "axmaqları, səriştəsizləri və şikəstləri" təbii seleksiya zamanı tək başına buraxaraq kənarlaşmalarını gözləməkdir.19

Hadisənin ən vacib tərəfi bu fikirlərin "darvinizmin yanlış yozumu" deyil, darvinizmin şəxsən özü olmasıdır. Benjamin Farringtonun "What Darwin Really Said?" (Darvin həqiqətən nə demişdir?) kitabında vurğulandığı kimi "insan cəmiyyətlərində zəiflərin güclülər tərəfindən sıxışdırılmasını qanuniləşdirəcək arqument" Darvin tərəfindən şüurlu şəkildə irəli sürülmüşdür.20

Darvin: İngilis imperializminin təmsilçisi

Bütün bu həqiqətlər Çarlz Darvin və irəli sürdüyü elmi olmayan təkamül nəzəriyyəsi haqqında əhəmiyyətli mənzərəni ortaya qoyur.

Darvinin nəzəriyyəsinin iki vacib problemə dəstək verdiyini araşdırdıq. Bunlar imperializm və vəhşi kapitalizmdir. Darvin "irqlər arasındakı həyat mübarizəsi" düşüncəsi ilə vəhşi kapitalizmə, "fərdlər arasında həyat mübarizəsi" konsepsiyası ilə imperializmin əsasını qoymuşdur.

Burada bir məqam diqqət çəkir: Bu iki anlayış da 19-cu əsr İngiltərəsini təsvir etmək üçün istifadə edilə bilən ən ideal iki anlayışdır. Başqa sözlə, 19-cu əsr İngiltərəsinin ən əhəmiyyətli iki xüsusiyyəti imperialist və qəddar kapitalist ölkə olmasıdır.

Bu bizə Darvini Britaniya imperatorluğunun mənafeyini təmin edən və İngilis imperializmini qanuniləşdirməyə çalışan bir şəxs kimi tanıdır. Əlbəttə ki, Darvin nəzəriyyəsi yalnız bu siyasi məqsədlərlə məhdudlaşa bilməz; Darvinin ən böyük hədəfinin materialist fəlsəfəni dəstəkləmək və təbiət üçün materialist izah vermək olduğu açıqdır. Ancaq Darvin bilərəkdən nəzəriyyəsinə siyasi yön qazandırmışdır. Bilərəkdən ingilis imperializmini və vəhşi kapitalist nizamı dəstəkləyəcək izahlar etmişdir. Bununla da İngiltərəni idarə edən güclərin gözünə girmək və nəzəriyyəsinə üstüörtülü də olsa "rəsmi" dəstək tapmaq istəmiş ola bilər. Ya da həqiqətən İngilis imperializminə inanan və ölkəsinin siyasi sistemini qanuniləşdirməyə çalışan bir növ irqçi olması da mümkündür. Ancaq hər iki alternativ də nəticədə eyni şeyə gətirib çıxarır: Darvin 19-cu əsr İngilis imperializminin təmsilçisidir.

Bu həqiqət bəzi əhəmiyyətli elm adamları tərəfindən də təsbit edilmişdir. Məsələn, Kenneth J. Hsu darvinizmi 19-cu əsr İngiltərəsinin siyasi hesablarına bağlayır (Bu əsrdə İngiltərə tarixində iz qoymuş kimi kraliça Viktoriyanın şərəfinə "Viktoriya İngiltərəsi" olaraq da bilinir). İngiltərənin Çinə qarşı başlatdığı və bu ölkəni "açıq bazar" etməyi hədəfləyən "Tiryək müharibələri" zamanı azğın darvinist məntiqdən tez-tez istifadə olunduğuna diqqət çəkən Hsu bu sözləri demişdir:

> *“Viktoriya dövrü üçün ideal elm adamı olan Çarlz Darvin tiryəki satmağa məcbur edə bilmək üçün Çini istila edən və bunu sərbəst ticarət qaydalarına və “ən güclülərin sağ qalması” qaydasına əsaslandıran ölkənin (İngiltərə) elmi dayağıdır.”21*

Çarlz Darvinin İngilis imperializminin təmsilçisi olduğunu müəyyənləşdirmək bizim üçün çox vacibdir. Çünki məlum olduğu kimi Osmanlı imperatorluğu və nəticədə Türk milləti 19-cu əsrdə İngilis imperializminin hədəf aldığı ölkələr arasında birinci yerdə idi.

Darvin “imperyalizm təmsilçisi” vəzifəsini bəlkə də hər şeydən çox Türk düşmənliyini körükləyərək etmişdir.

FƏSİL

İngilis müstəmləkəçiliyi və Osmanlı

İngiltərə 19-cu əsrin ən böyük siyasi gücü idi. ABŞ-ın 20-ci əsrdə qazandığı "super güc" mövqeyi 19-cu əsrdə İngiltərəyə məxsus idi. Britaniya imperiyası dünyanın ən güclü donanmasına sahib idi və Hindistandan Cənubi Afrikaya, Misirdən Avstraliyaya qədər koloniyaları var idi. İngiltərə həm də dünya ticarətinin ən güclü faktoru və determinantı idi. Bu gün "dollar" necə etibarlı beynəlxalq valyutadırsa, 19-cu əsrdə də funt sterlinq dünyada hakim idi.

İngiltərənin siyasəti daha çox koloniya qazanmaq və bu müstəmləkələri onun üçün mümkün olan ən "səmərəli" şəkildə istifadə etmək məqsədinə əsaslanırdı. Fransanın oxşar hədəfləri var idi və iki ölkə arasında şiddətli "müstəmləkəçilik" yarışı gedirdi. Əsrin sonlarına doğru Almaniya da bu mübarizəyə qatıldı və daha əvvəl İngiltərə və Fransa başda olmaqla digər Avropa ölkələri tərəfindən paylaşılan müstəmləkə bölgələrindən pay almağa çalışdı. Digər tərəfdən, Rusiya imperiyası ərazisini genişləndirmək və isti dənizlərə enmə strategiyasına görə bu yarışda maraqlı yer tutdu. 19-cu əsri araşdıran tarixçilər Avropa gücləri arasındakı bu müstəmləkə yarışını "Böyük oyun" olaraq xarakterizə edirlər. Bu böyük oyun 19-cu əsrdə beynəlxalq münasibətlərdəki ən vacib amildir.

Osmanlı İmperiyası böyük oyunda müstəsna yerə sahib idi. Çünki imperiya Balkan yarımadasının qərb sərhədlərindən Ərəbistan yarımadasının ən ucuna qədər bütün Orta Şərq və Şimali Afrikanı əhatə edən nəhəng coğrafiyanı idarə edirdi. Lakin imperiya böyük hərbi güclə qazandığı və əsrlər boyu sabitlik və nizam ilə hökm sürdüyü bu coğrafiyanı idarə etməkdə çətinlik çəkirdi. Bunun ən vacib texniki səbəbi

imperiyanın Qərbdəki tərəqqiyə biganə qalması idi. Osmanlı imperiyası uzun müddət Qərb dövlətlərinin inkişaf etdirdiyi texnologiyaya laqeyd qalmış və dövlət quruluşunu möhkəmləndirmək üçün həyata keçirilməli olan islahatları çox gec həyata keçirmişdi. 19-cu əsrdə bu problemi ən doğru şəkildə təyin edən və həll etmək üçün təsirli tədbirlər görən hökmdar Sultan II Əbdülhəmid olmuşdur. Əbdülhəmid ordudan donanmaya, poçt xidmətlərindən dəmir yollarına, elmi məktəblərdən müasir hərbi məktəblərə qədər hər sahədə ciddi modernləşmə proqramı başlatmışdı.

Osmanlı imperatorluğunun bu vəziyyəti böyük oyun hökmdarlarını çox narahat edirdi. Çünki İmperiyanın nəzarətində olan torpaqlar sadəcə "iştahaaçan" idi. Rusiya çoxdan Osmanlı torpaqlarını işğal edərək İstanbulu və Çanaqqalanı ələ keçirtmək, bununla da Aralıq dənizinə çıxış təmin etmək istəyirdi. İngiltərə və Fransa üçün imperiyanın Şimali Afrika və Orta Şərqdəki torpaqları çox vacib idi. Xüsusilə 19-cu əsrin sonunda neftin əhəmiyyətini kəşf etmək və daha sonra ən zəngin neft yataqlarının Orta Şərqdə olduğunu anlamaq Osmanlı imperiyasını böyük oyunun ən vacib hədəfi etdi.

Böyük oyunun ən vacib elementi əvvəldə də qeyd etdiyimiz kimi, 19-cu əsrin super gücü İngiltərə idi.

İngiltərənin Osmanlı siyasəti

İngiltərənin müstəmləkə yarışının ən vacib elementi olduğunu və bu yarışın da Osmanlı imperiyasını hədəf aldığını bildirdik. Ancaq bu diaqnoz 19-cu əsrin son dörddə biri ilə 20-ci əsrin ilk dörddə birini əhatə edən dövr üçün keçərlidir. Bundan əvvəl, 19-cu əsrin əhəmiyyətli hissəsində İngiltərə müəyyən strateji maraqlara görə Osmanlı imperiyasına qarşı dost siyasəti yürütdü.

İngiltərənin Osmanlı imperiyası ilə əlaqələri İngilis imperatorluğunun Yaxın Şərqdə əhəmiyyətli torpaqlar qazanması ilə başladı. Ticarət müqavilələri ilə məhdud olan əlaqələr ingilislərin 1757-ci ildə Hindistanı ələ keçirməsi ilə siyasi və strateji əhəmiyyət qazandı. Osmanlı imperiyası həm quru, həm də dəniz yolları ilə Hindistana qədər çatan güclü imperatorluq idi və İngiltərə ilə yaxşı əlaqələr qurmağı üstün tuturdu.

Bu sözlər Engelsin nə qədər səhv olduğunu bir daha nümayiş etdirirdi. Engels üçün bütün digər təkamülçülər kimi, heç bir elmi əsası olmayan bəzi fərziyyələrin doğru olduğu yalanına aldanmışdı. Bundan əlavə, "Meymundan insana keçiddə əməyin rolu" adlı əsərini dərc edərək dərhal Darvin nəzəriyyəsini mənimsədiyini göstərmişdi. Bundan əlavə, Engels darvinizmi təbiət elminin inkişafında üç vacib dəstəkdən biri kimi göstərir və belə deyirdi:

> *"1859-cu ildə Çarlz Darvin əsas əsəri olan "Növlərin mənşəyi" əsərini nəşr etdirmişdi. Bu əsər bir əsrdən çox davam edən təkamül fikrinin inkişafını tamamlama və müasir biologiyanın əsasını qoymuşdu. Bu kəşflərin fəlsəfi əhəmiyyəti ondadır ki, təbii inkişafın dialektik mahiyyətini qısa şəkildə göstərirlər."105*

Bu açıqlamalardan da göründüyü kimi, Engels Darvinin təkamül nəzəriyyəsinin onun ateist dünyagörüşünə elmi dəstək olduğunu düşünməkdən məmnun qalmışdı. Ancaq belə bir sevincə qapılmaq üçün bir az tələsmiş və dövrünün ibtidai elm anlayışı onu ciddi səhv etməyə vadar etmişdi. Əslində 20-ci əsr girəndə Darvinin iddialarının etibarsızlığı elmdəki inkişaflar sayəsində reallaşacaq və təkamül nəzəriyyəsinin irəli sürdüyü fikirlərin sadəcə "xəyal məhsulu" olduğu açıqlanacaqdı. (Baxın "Təkamül yalanı", Harun Yəhya).

Fridrix Engels

Marks və Engelsdən başqa digər kommunist liderlər də təkamülçü idilər. “Lenin, Trotski və Stalin hamısı ateist təkamülçü idilər.”106 Rusiya ilə birlikdə Rus Kommunist İnqilabının iki böyük memarından biri olan Leon Trotski, “Darvinin ixtirası, dialektikanın (dialektik materializm) təbii maddələr sahəsindəki ən böyük qələbəsi”107 olduğunu demişdi. Buna bənzər şəkildə Çin kommunizminin qurucusu Mao Tse Tung “Çin

sosializmi Darvin və təkamül nəzəriyyəsinə əsaslandığını”108 açıq şəkildə bildirmişdi.

Nəticədə, kommunistlərin etdikləri bioloji təkamülü tarixə və cəmiyyətə tətbiq etmək idi. Cəmiyyətdəki dəyişiklikləri, sıçrayışları, dağıntıları və inqilabları təbii təkamül kursu olaraq qəbul etdilər. Bu səbəbdən Çarlz Darvin həm kommunizm qurucuları, həm də onların yollarını davam etdirənlər üçün çox əhəmiyyətli və dəyərli şəxsiyyət idi.

Marksizmlə darvinizm arasındakı əlaqə bu gün hamı tərəfindən qəbul edilən çox açıq həqiqətdir. Karl Marksın tərcümeyi-halını izah edən kitablarda da bu əlaqəyə yer verilir. Məsələn, “Öncü” nəşriyyat evi tərəfindən nəşr olunan tərcümeyi-halda bu əlaqə belə təsvir edilmişdir:

> *“Darvinizm marksist fəlsəfəni dəstəkləyən, sübut edən və inkişaf etdirən bir sıra faktlar təqdim etmişdi. Darvinist təkamülçü fikirlərin yayılması, marksist fikirlərin bütünlüklə zəhmətkeş insanlar tərəfindən başa düşülməsi üçün əlverişli zəmin yaratmışdı... Marks, Engels və Lenin Darvinin fikirlərinə böyük dəyər verir və onların böyük elmi əhəmiyyətinə işarə edir və bununla da bu fikirlərin yayılmasını sürətləndirirdilər.”109*

Daha əvvəl də bildirildiyi kimi, kommunizmin qurucuları tərəfindən bu qədər tərifl ənən təkamül nəzəriyyəsi davamçıları tərəfindən də hərarətlə qəbul edildi. Dünyanın harasında olmasından asılı olmayaraq, bütün kommunist rejimlər və ya hərəkatlar darvinizmi sona qədər qorudu və onu fikri çərçivəsinin təməl daşlarından biri kimi qəbul etdilər. Kommunizm ilə birlikdə “irq” mübarizəsi “sinif” mübarizəsinə çevrildi.

Ən məşhur və ən qanlı darvinist kommunist liderlərdən biri İosif Stalin idi. Çar dövründəki uşaqlığı dövründə Stalin xristian təhsili verən məktəbdə oxumuşdu. Və məktəb illərində dindar xristian idi. Ancaq bir gün bir kitab oxudu və həyatı dəyişdi. Kitab “Növlərin mənşəyi” (Çarlz Darvin-in “Növlərin mənşəyi” adlı kitabı) idi. Ateizmi qəbul etdikdən sonra qısa müddətdə Kommunist Partiyası sıralarına qoşuldu. 60 milyon

insanın həyatına başa gələcəyi təxmin edilən hakimiyyəti dövründə təkamül təbliğatına böyük əhəmiyyət verdi. Tərcümeyi-halında belə yazırdı:

> *"Altı gün ərzində məktəblərdəki şagirdlərimizin düşüncələrini yaradılış mifindən təmizləmək üçün onlara üç şeyi xüsusi öyrətməliyik: Dünyanın yaşı, geoloji mənşəyi və Darvin təlimləri."110*

> *Gördüyümüz kimi, Marksist liderlər darvinizmi müdafiə edir və müdafiə etdikləri kommunist ideologiya üçün nə qədər əhəmiyyətli olduğunu başa düşdükləri üçün ilk iş olaraq darvinizmi təhsil proqramlarına daxil etdilər. John N. Moore bu mövzuda belə deyir:*

> *"SSRİ liderlərinin düşüncələri təkamülçü dünya görüşünə əsaslanır."111*

> *Robert M. Young "The Darvin debate, Marxizm today" adlı əsərində belə yazır:*

> *"Təkamül nəzəriyyəsinin baxışları marksizmlə tamamilə uyğundur. İnsanın mənşəyi və ağılın təbiət qüvvələrinə əsaslanan izahı digər dünyəvilər kimi marksistlərə də xoş görünmüşdü."112*

Bunların nəticəsi olaraq marksizmin və darvinizmin iki müstəqil nəzəriyyə olmadığını gördük. Əslində, hər iki nəzəriyyənin əsasında eyni prinsip dayanır. İkisi bütünlük təşkil edir. Darvin prinsipləri insanlar arasında Marks prinsipləri ilə yaşanır. Buna əsasən aşağıdakıları demək mümkündür: Təkamül nəzəriyyəsi hər hansı sol hərəkatın fəlsəfi əsasında əvəzolunmaz yerə sahibdir. Buna görə də hər hansı bir hərəkat və hər hansı sol rejim özünü fəlsəfi dəstək və qanuniliklə təmin etmək üçün təkamülü qəbul edib cəmiyyətə tətbiq etmək məcburiyyətindədir.

Gördüyümüz kimi darvinizm insanlığa zərər verən, onları fitnə və müharibələrə sövq edən bir çox ideologiyanın arxasında durur. Bir-birindən tamamilə fərqli görünən və hətta zidd olduğu bilinən ideologiyalar da darvinizmin təməlində tək bir nöqtədə birləşirlər.

Məsələn, bu gün dünyanın əksər hissəsi Hitler və Stalinin əks qütblərə mənsub olduğunu düşünür. Bu, müəyyən mənada doğrudur, amma digər tərəfdən birləşdikləri ortaq məxrəc vardır. Hər ikisi də qəddarlığı sənət halına gətirmiş və milyonlarla insanı qətlə yetirmişdilər. Bunu edərkən ikisi də darvinizmdən əhəmiyyətli vasitə kimi istifadə etmişdilər. Paul G. Humber "Hitler's Evolution Versus Christian Resistance" adlı məqaləsində Stalin ilə Hitler arasındakı bu ümumi nöqtəyə işarə edərək bunları demişdir:

"Stalin bilərəkdən Darvini seçmişdi. Hitler güclünün həyatda qalmasını dünyaya zorla qəbul etdirməyə çalışırdı."113

Faşist Almaniya ilə Kommunist Rusiya arasında böyük fəlsəfi oxşarlıq vardır. Hər iki totalitar rejim darvinizmdən dəstək tapmışdır. Təkamül nəzəriyyəsini tənqid edən dünyaca məşhur simalardan biri Dr. Henry Morris bu məsələyə aşağıdakı kimi istinad edir:

> *"Təkamülçülüyün acı meyvələri arasında; Karl Marksın (ardından Engels, Lenin, Stalin, Mao) və Adolf Hitlerin (Nitşe və Hekelin fikirlərinə əsaslanaraq) öncülük etdiyi sözlərlə ifadə edilməyəcək qədər çox qəddar sistemlər vardır. Həm Marksın, həm də Hitlerin ataları, dostları və varisləri ilə təkamülçü olmaları çox mənalıdır. Təkamülçü təkliflər əsasında öz toplumlarını qurmağa çalışmışdılar. Təkamülçülük (xüsusilə darvinizm) bu iki bəladan daha çox məsuliyyət daşıyır."114*

Kommunizm və terror

Anarxiya və terrorizm marksizm və leninizmin dəyişməz metodudur. Sovet Rusiyasının qurulması dövründə Lenin milyonlarla insanı öldürməsi, Mao Qırmızı Çində "100 çiçək açsın" kampaniyası ilə rəqiblərini öldürməsi və Stalinin qırğınları ilə tarixə keçməsi, Kambocanın Marksist lideri Pol Potun 9 milyonluq ölkənin üç milyonunu öldürərək Hitleri belə geridə qoyması tarixin bilinən həqiqətləridir.

Amerikalı politoloq Samuel Francis mövzu ilə bağlı aşağıdakı şərhləri etmişdir:

“Marks və Engels inqilabın həmişə zorla olacağını iddia edirdilər. İnqilabçıların hakim gücə qarşı şiddət tətbiq etmələri və hər zaman terrorizmə dəstək verdiklərini açıq şəkildə bildirmişlər.”115

Leninin terrorun sistematik şəkildə istifadəsi ilə bağlı çox açıq ifadələri vardır:

> *“Təbliğatçılar hər bir qrupu sadə bomba formulları ilə silahlandırmalıdırlar. Onlara işin mahiyyətini izah etməli və gerisini onlara buraxmalıdırlar. Qruplar dərhal hərbi təlimlərə, əməliyyatlara qatılmaqla başlamalıdır. Bəziləri bir casus öldürmək və ya polis bölməsinə basqın etmək vəzifəsini yerinə yetirməlidirlər. Bəziləri bankları qarət etməlidirlər.”116*

“Siyasi qətllərə qətiyyən qarşı deyilik... Yalnız birbaşa geniş xalq kütlələri ilə əlaqəli fərdi terror hərəkatları dəyər daşıyırlar.”117

“Bəzi insanlar bizi qəddarlığımıza görə qınadığında, onların ən sadə marksist prinsipləri belə necə unuda bildiklərinə heyran qalırıq.”118

Lenin ilə birlikdə Rusiyada Oktyabr inqilabının ən əhəmiyyətli lideri olan Trotski bütün bu hekayəni gücləndirən bir açıqlamasında belə demişdir:

> *“Lakin inqilab tələb edir ki, inqilabçı sinif öz məqsədinə hər cür vasitələrlə lazım gələrsə silahlı üsyanla, lazım gələrsə terrorizmlə çatsın.”119*

> *Digər bir açıqlamasında Karl Marks belə demişdi:*

> *“Üsyan müharibə qədər müharibədir.” Marks silahlı üsyanla bağlı bütün inqilabların dərslərini bugünə qədər “inqilab” siyasətinin ən məşhur ustası Dantonun sözləri ilə yekunlaşdırmışdır: “Hücum, hücum, yenidən hücum.”120*

Anarxiya

Terrorizmi marksistlər qədər solçuların başqa versiyasını təmsil edən anarxistlər də müdafiə edirlər. Anarxizm hər cür səlahiyyət, güc və ilk növbədə dövlətə qarşı çıxan siyasi fəlsəfədir. Fərd üçün heç bir öhdəlik, məsuliyyət və ya qayda qəbul etmir. Bütün dini, əxlaqi və hüquqi qanunları rədd edir. Marksizmlə eyni fəlsəfi təmələ əsaslanan, yalnız müəyyən metodlarla fərqlənən bu ideologiya, bütün digər darvinist əsaslı fikirlər kimi terrora rəğbət bəsləyir. Anarxist nəzəriyyəçilərin əsərlərində terrorun zəruriliyini müdafiə etmək üçün çoxsaylı ifadələr vardır. Məsələn, anarxizmin qurucusu sayılan Bakunin 1869-cu ildə nəşr olunan "İnqilab prinsipləri" adlı əsərində bunları demişdir:

> *"Məhv olmaqdan başqa heç bir hərəkət tanımırıq. Ancaq bu hərəkətin özünü göstərəcəyi formalar zəhər, bıçaq, ip və s. kimi son dərəcə müxtəlif olacağını qəbul edirik... Ağlamaq və fəryad ilə "cəmiyyət" qorxu və vicdan əzabı içində olacaq. Ancaq inqilabçılar həlak olanların fəryadlarına laqeydlik göstərəcək və heç bir güzəştə getməyəcəklər. İnqilabçıların metodu terror sayıla bilər, ancaq bu onları çəkindirməməlidir. Onların əsas məqsədi inqilabı həyata keçirməkdir. Şəri məhv etməyin səbəbi müqəddəsdir; Rus torpağı qılınc və atəşlə təmizlənəcəkdir."*

Bölücü terrorun təməl fikri

Bu nöqtəyə qədər biz Darvinin təkamül nəzəriyyəsi ilə kommunizm və bunun bir versiyası hesab edilə bilən anarxizm ilə münasibətləri həll etdik. Bu ideologiyaların terrorizmi və şiddəti necə əhatə etdiklərini və onları qanuni metod kimi qəbul etdiklərini də bildirdik. Maraqlısı budur ki, bu iki xüsusiyyət, yəni darvinist düşüncə və terrorizm tərəfdarı münasibət bir-biri ilə əlaqəlidir.

Darvinizm həqiqətən terrorizmi qanuni metod olaraq görən və müdafiə edən azğın ideologiyalar üçün fikri zəmin yaradır. Darvinizm şiddətin, qarşıdurmanın və qanlı mübarizələrin təbiət qanunlarına uyğun "inkişaf"

metodu olduğu yalanını müdafiə edir. Darvin təbiətdə yaşamaq üçün qanlı mübarizənin olduğunu və bunun cəmiyyətdə tətbiq olunmasının insan təkamülündə irəliləməyə səbəb olacağını müdafiə edirdi. Başqa sözlə, bir toplumda qan tökülməsi, fərqli qruplar arasında qarşıdurma, "inqilabçı"lar və "mühafizəkar"lar arasında mübarizə darvinizm üçün yaxşı və doğru bir şeydir.

Kommunistlər və anarxistlər isə terrora bağlılıqlarını darvinizm fəlsəfəsi ilə dəstəkləyirlər.

Bu mövzuda ətrafımızdan nümunə verə bilərik: Darvinist təhsil proqramları, dünyanın hər yerində olduğu kimi, ölkəmizdəki kommunist təşkilatların həm təbliğatı, həm də daxili təlimlərinin mühüm bir hissəsini təşkil edir. Əslində, ölkəmizin şərqində fəaliyyət göstərən separatçı təşkilat aylardır bölücü təşkilatlarda, düşərgələrə militanlarına darvinizm təhsili verir.

Bu təlimdə əlli nəfərlik döyüşçü qruplarına böyük panellərdə kainatdakı hər hadisənin "tezis-antitezis-sintez" şəklində və təbiətin dialektikası, canlıların dialektikası və tarixin dialektikası olaraq üçə bölünən "dialektika" düsturuna görə inkişaf etdiyi izah edilir. Təbiətdəki hər şeyin təbiətin dialektikası kimi inkişaf etdiyi, bütün canlıların bir-birindən canlıların dialektikası olaraq törədiyi, insanların meymunlardan gəldiyi və cəmiyyətlərin tarixin dialektikası olaraq kommunist ictimai quruluşa doğru inkişaf etdikləri və bu prosesin sonunda Kommunist Kürd İnqilabının həyata keçirəcəyi cəfəngiyat militanlara aşılanır. Növbəti mərhələdə militanlara partizan təhsili verilir.

Bu gənclər aldıqları darvinist-materialist təhsil nəticəsində cəmiyyət üçün son dərəcə təhlükəli fərdə çevrilirlər. Bu təhsil nəticəsində Allahı, dini, dövləti, milli və mənəvi dəyərləri inkar edən və insanları asanlıqla

öldürə və vəhşicəsinə qətl ediləcək heyvanlar kimi görən insanlar ortaya çıxır.

Unudulmamalıdır ki, mənəvi dəyərləri rədd edən, Allaha inanmayan və ölümdən sonra hesab günü olduğuna inanmayan insanlar asanlıqla hər cür əxlaqsızlıq və zülm edə bilərlər. Bu səbəbdən yuxarıda bəhs etdiyimiz marksist liderlər və onların yollarını izləyənlər körpələri, uşaqları, gəncləri, qadınları, qocaları və günahsız insanları asanlıqla öldürə bilərlər. Çünki fəlsəfələrinin əsas götürdükləri darvinist görüşlərə uyğun olaraq qarşılaşdıqları insanların əslində heyvan olduqlarını və hər hansı böcəyi öldürdükləri kimi onları da asanlıqla öldürə bildiklərini düşünürlər.

Nəticə olaraq, qırğınların, amansız qətllərin, insanlara zülmün, terrorun, separatizmin, dinə və dövlətə nifrətin arxasında darvinizm və materializm təhsili almış anarxistlər vardır. Bu səbəbdən darvinizmin əsl üzünü göstərmək və gənc beyinlər bu cəfəngiyatla yuyulmadan əvvəl lazımi tədbirlərin alınması Türk millətinin yaşaması üçün vacib tədbirdir.

Dünyadakı zülmün qaynağı Darvinin nəzəriyyəsidir

“Darvinizm terrorunun zəminini təşkil edən sistemdir, terror zəmini darvinizmdə tapır. Yəni bataqlıqda milçəyin çoxalması kimi, darvinizm bataqlığında da terror yaranır.” (Hörmətli Adnan Oktarın “Amerikan xalq radiosu”na verdiyi müsahibə, İstanbul, 11 oktyabr 2008-ci il)

ADNAN OKTAR: Darvinizmin və materializmin çöküşü artıq dünyada terrorun və anarxiyanın, döyüşlərin və müharibələrin sonu deməkdir. Çünki bütün dünyada ortaya çıxan terrorun, anarxiyanın və müharibələrin və fikir ayrılıqlarının arxasında darvinizm dayanır. “Yaradılış Atlası” adlı kitabımı oxuyanlar bunu görəcəklər. Artıq dünyanın

qardaşlığına, birliyinə heç bir maneə yoxdur. İndi hz. İsa (ə.s)-ın enməsini gözləyirik. Bu qızıl əsri, gözəl əsri gözləyirik, Hz. Mehdi (ə.s)-ın zühurunu gözləyirik. Avropa, Amerika, Rusiya və bütün dünya qardaş olacaq. Çox möhtəşəm, gözəl mədəniyyət yaranacaq. Qızıl əsrdə dünyada xoşbəxt yaşayacağıq, inşaAllah, Allahın izni ilə.

Türkiyəyə inananların sayı artıb. Hal-hazırda insanların 95%-i darvinizmə inanmır. Türkiyədə insanların 95%-i Allaha inanır. Bu, mükəmməl hadisədir, Avropada da nisbət bu səviyyəyə çatmışdır. Allaha inananların sayı bu nisbətə gəldi, yəni 75-85% arasında dəyişir. Bu nisbət Amerikada da çox yüksəkdir, bu böyük müvəffəqiyyətdir, Allahın yaratdığı müvəffəqiyyətdir. Dünyanın materialist qaranlıq dövrdən çıxacağını və aydınlığa girəcəyini açıq şəkildə görürük. Bu, çox sevindirici hadisədir, artıq qaranlıq dövr bitmişdir. (Hörmətli Adnan Oktarın "The Student Operated Press" ilə həyata keçirdiyi telefon konfransı, 23 mart 2009-cu il)

ADNAN OKTAR: Darvinistlər hələ də Lenin, Stalin, Hitler və hətta Mussolininin fikirlərini tətbiq etməyə davam edirlər. Stalin, Lenin, Mussolini və Hitler darvinist idilər, düşüncələrini və fəlsəfələrini darvinizmdən aldıqlarını açıq şəkildə bildirirdilər. Kitablarında və əsərlərində kainatda ziddiyyətin olduğunu, insanların yalnız qarşıdurmalar yolu ilə inkişaf edə biləcəyini, dünyada müharibələrin vacib olduğunu, anarxiya və terrorun vacib olduğunu iddia edirdilər. Eyni şəkildə bəzi məlumatı olmayan müsəlmanlara da bunu təlqin etdilər. Onlara qarşıdurmanın, anarxiyanın və terrorun vacib olduğunu öyrətdilər. Onlara Amerika, İngiltərə, Avropa ölkələrində təhsil verdilər və onlara terrorçu, anarxist ruh verdilər. Lakin İslam sevgi, qardaşlıq, sülh, hikmət və elm yolu ilə yayılır. (Hörmətli Adnan Oktarın ABN radiosuna verdiyi müsahibə, 15 noyabr 2009-cu il).

FƏSİL 9

Nəticə

Bu kitab boyunca darvinizmin araşdırdığımız qaranlıq tərəfinin vətəninə və milli kimliyinə sadiq olan hər bir Türkün reaksiyasını cəlb edəcəyi şübhəsizdir. Həqiqətən, millətimizi "aşağı irq" adlandıran imperializmin təmsilçisi "elm adamı"na və onun fikirlərinə qarşı çıxmaq hər türkün milli vəzifəsidir.

Ancaq təəssüf ki, bu gün Türkiyədə elm adamları, ziyalılar, bu yazıçıların bəziləri şüurdan məhrumdurlar. Özlərini "yarı meymun" elan edən Darvin nəzəriyyəsindən yapışır və elm tərəfindən rədd edilməsinə baxmayaraq, bu cəfəngiyatı kor-koranə müdafiə edirlər.

Mövzunun ən pis tərəfi isə, darvinizmin Türkiyədəki dövlət məktəblərində tədris edilən bəzi dərsliklərə elmi həqiqət kimi təqdim edilməsidir. Bu böyük elmi səhvlərlə dolu kitabları oxuyan uşaqlar darvinizmi elm tərəfindən sübut edilmiş nəzəriyyə kimi öyrənirlər. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, "Təkamülçülərin səhvləri 3: Orta təhsil dərsliklərindəki elmi səhvlər"). Darvinizmə bu şəkildə inandırılan bir nəsil darvinizmin millətini "aşağı irq" olaraq gördüyünü görəndə milli qürurunu necə qoruyacaq? Yoxsa bu nəsil kommunist təşkilatların təlqinindən və beyin yuma cəhdlərindən necə qorunacaq?

Rəsmi qurumlarımız bu məsələyə ciddi diqqət yetirməli və bu faktları nəzərə alaraq milli mədəniyyət siyasətini müəyyənləşdirməlidirlər. Türk millətinə qarşı düşmənçilik üçün zəmin yaradan iddianın elmi dəyəri olmadığı sübut edilsə də, heç vaxt Türk təhsil sistemi tərəfindən dəstəklənməməli və bu mövzuda bu günə qədər davam edən səhv tətbiqlər təcili olaraq düzəldilməlidir.

Darvinizmə inananlar inandıqları nəzəriyyənin cəfəngiyatdan başqa bir şey olmadığını bilməlidirlər. Bunun göstəricilərindən biri də Darvinin "tezliklə yer üzündən silinəcək geridə qalmış irq" olaraq xarakterizə etdiyi böyük Türk millətinin bütün düşmənlərinə baxmayaraq, ayaqda dimdik durması və Ulu Öndər Atatürkün istədiyi kimi "əbədi qalması"dır.

Ulu öndərimiz Atatürkün kommunizm təhlükəsinə diqqət çəkdiyi sözlərindən nümunələr

> *"Biz nə bolşevikik, nə də kommunist; nə biri, nə də digəri ola bilmərik. Çünki milliyyətçi və dinimizə hörmətlə yanaşırıq." ("Atatürkün Söylev ve Demeçleri", III, cild, 2-ci nəşr, səh. 20)*

> *"Bolşeviklərə gəlincə, bu doktrinanın ölkəmizdə yeri yoxdur. Dinimiz, adət-ənənələrimiz və sosial bünövrəmiz belə fikrin yerləşməsinə uyğun deyil... Nəhayət, dini prinsiplərimiz bizi bolşevizmi qəbul etməkdən uzaqlaşdırır." ("Atatürkün Tamim, Telgraf ve Beyannameleri", IV, 1917-1938-ci illər, Ankara, 1964-cü il, səh. 78)*

> *"Kommunizm sosial mövzudur. Ölkəmizin vəziyyəti, ölkəmizin sosial qanunu, dini və milli ənənələrinin gücü Rusiyadakı kommunizmin tətbiq edilməsi üçün uyğun olmadığı fikrini təsdiqləyir." ("Atatürkün Söylev ve Demeçleri", III cild, 2-ci nəşr, səh. 20)*

FƏSİL

TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Təkamül nəzəriyyəsinin çöküşü

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Çarlz Darvin — "Növlərin mənşəyi" kitabı

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Louis Pasteur təkamül nəzəriyyəsinin təməli olan “cansız maddə canlılıq yarada bilər” iddiasını apardığı təcrübələrlə nəticəsiz etdi.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

Kembri qayalarında tapılan fosillər ilbizlər, trilobitlər, süngərlər, soxulcanlar, meduza, dəniz ulduzları, üzən xərçəngkimilər və dəniz zanbaqları kimi kompleks onurğasız növlərə aiddir. Maraqlısı budur ki, bu çox fərqli növlərin hamısı bir anda ortaya çıxmışdır. Bu səbəbdən bu möcüzəvi hadisə geoloji ədəbiyyatda "Kembri partlaması" olaraq adlandırılır.

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə

irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:



Təkamülçülərin həyatın mənşəyi ilə bağlı 20-ci əsr eksperimentləri uğursuz oldu

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

> Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr

birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri də həyatın inanılmaz dərəcədə mürəkkəb quruluşudur. Canlı hüceyrələrin nüvəsində yerləşən DNT molekulu buna nümunədir. DNT dörd ayrı molekulun fərqli ardıcıllığından ibarət bir növ məlumat bankıdır. Bu məlumat bankında canlının bütün fiziki xüsusiyyətləri üçün kodlar vardır. İnsan DNT-si kağıza yazıldıqda təxminən 900 cildlik ensiklopediya ortaya çıxacağı təxmin edilir. Əlbəttə ki, bu cür fövqəladə məlumatlar şans anlayışını tamamilə keçərsiz edir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Təbii seleksiyaya görə güclü və yaşadıqları mühitə uyğunlaşa bilən canlılar sağ qalır, digərləri isə məhv olurlar. Təkamülçülər təbii seleksiyanın canlıları inkişaf etdirdiyini və yeni növlər meydana gətirdiyini iddia edirlər. Ancaq təbii seleksiyanın belə nəticəsi yoxdur və bu iddianı təsdiqləyən dəlil də yoxdur.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət

olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.



Mutasiyalar DNT-dəki məlumatı heç vaxt təkmilləşdirmir

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi

cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.



Əsrin əvvəllərindən bəri təkamülçülər milçəkləri mutasiya edərək faydalı mutasiya nümunəsi yaratmağa çalışmışlar. Ancaq on illərlə davam edən bu səylər nəticəsində tək nəticə şikəst, xəstə və qüsurlu milçəklər idi. Solda normal meyvə milçəyinin kəllə sümüyü, sağdakı isə başqa bir mutasiya olunmuş meyvə milçəyidir.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamülçülər fosillər haqqında fikirlərini ümumiyyətlə ideoloji gözləntiləri istiqamətində edirlər. Buna görə də onların nəticələri çox vaxt etibarsızdır.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə

prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə

belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir

dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Təkamül tərəfdarı olan qəzet və jurnallarda yayımlanan xəbərlərdə yan tərəfdəki kimi xəyali "ibtidai" insanların şəkillərindən tez-tez istifadə olunur. Bu xəyali şəkillər əsasında yaradılan xəbərlərin yeganə mənbəyi müəlliflərin xəyallarıdır. Bununla yanaşı, təkamül elm qarşısında o qədər məğlubiyyətlər aldı ki, təkamül haqqında məruzələr indi elmi jurnallarda daha az yayılmışdır.

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E.

Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul

etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Darvinizmin insan təkamülü nağılı elmi dəlillərə əsaslanmır

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə

əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz

hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Bütün həyatımızı beynimizin içində yaşayırıq. Gördüyümüz insanlar, sürdüyümüz maşın, iş yerimiz, ətrafımızdakı hər şey beynimizdə formalaşır. Əslində beynimizdə nə rənglər, nə səslər, nə də şəkillər vardır. Beyində olan tək şey elektrik siqnallarıdır.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor

kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi

sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?



Keçmişdə timsahlara ibadət edənlərin inancları nə qədər qəribə və ağlasığmaz olsa da, darvinistlərin inancları bu gün də eyni dərəcədə ağlasığmazdır. Darvinistlər cansız şüursuz atomları yaradıcı bir qüvvə kimi qəbul edirlər və hətta bu xurafat inanca dinə bağlı olduqları kimi bağlanırlar.

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs,

qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən

bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Təkamül nəzəriyyəsi dünyanın ən təsirli sehrədir

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə

düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

FƏSİL 2

Ədəbiyyat

1) Enver Ziya Karal, “Osmanlı Tarihi”, VIII cild, 3-cü nəşr, Ankara: “Türk tarix təşkilatı” nəşriyyat, 1988, səh. 552

2) François de Fontette, “Irkçılık”, tərcüməçi: Haldun Karyol, İstanbul: “İletişim” nəşriyyat, 1991, səh. 40-41.

3) James Ferguson, “The Laboratory of Racism”, “New Scientist”, cild 103, 27 sentyabr 1984, səh. 18

4) Charles Darwin, “The Descent of Man”, 1871, “Summary”; Stephen Jay Gould, “The Moral State of Tahiti—and of Darwin”, Natural History, 10/91, səh. 14

5) Benjamin Farrington “What Darwin Really Said”, London: “Sphere Books”, 1971, səh. 54-56

6) Charles Darwin, “İnsanın Türeyişi”, Ankara: “Onur” nəşriyyat, 7-ci nəşr, iyun 1995, səh.199-200

7) Darvin “təbii seleksiya” konsepsiyasını təqdim edəndə, ingilis klassik iqtisadçısı Thomas Robert Malthusun nəzəriyyələrindən təsirlənmişdi. Malthus qida qaynaqlarının ədədi silsilə ilə artdığını, insanların isə həndəsi silsilə ilə artdığını izah etmiş və bu səbəbdən insanların həyatda qalmaq üçün boğaz mübarizəsi apardıqlarını iddia etmişdi. Darvin isə bu amansız yaşamaq mübarizəsini təbiətə uyğunlaşdırmış və “təbii seleksiyanın” bu mübarizənin nəticəsi olduğunu iddia etmişdi. Ancaq sonrakı araşdırmalar Darvinin güman etdiyi kimi təbiətdə yaşamaq üçün mübarizə olmadığını göstərdi. İngilis zooloq Wynee-Edwardsın 1960-1970-ci illərdə heyvan populyasiyaları üzərində apardığı uzun araşdırmalar canlıların sayının maraqlı şəkildə nizamladığını və qida rəqabətinin qarşısını aldığını ortaya qoymuşdu. Heyvan sayı daha çox qida ehtiyatlarına görə təşkil edirdilər. Əhali aclıq və epidemiya kimi “zəif olanları aradan qaldırmaqla” deyil, əsasən heyvanlarda instinktiv nəzarət mexanizmləri ilə idarə olunurdu. Başqa sözlə, heyvanlar nüfuzlarını Darvinin güman etdiyi rəqabət yolu ilə deyil, öz çoxalmalarını məhdudlaşdıraraq idarə edirdilər. (Wynne-Edwards, V. C. “Self Regulating Systems is Populations of Animals, Science, cild 147, 1965, səh. 1543-1548; Wynne-Edwards, V. C. Evolution Through Group Selection, London:1986)

Bitkilər belə Darvinin təklif etdiyi “rəqabətə görə seçim” nümunələri deyil, nüfuz nəzarəti nümunələri verirdi. Botanik Bradshaw tərəfindən aparılan müşahidələr bitkilərin çoxalarkən böyüdükləri sahənin “sıxlığına” uyğun davrandıqlarını və bölgədəki bitkinin sıxlığı artdıqda çoxalmanı azaltdığını sübut etmişdi. (Bradshaw 1965; Lee Spetner, “Not By Chance!: Shattering the Modern Theory of Evolution”, New York: The Judaica Press, Inc, 1997) Digər tərəfdən qarışqa və arı kimi toplumlarda rast gəlinən fədakarlıq nümunələri darvinist həyatda qalma mübarizəsinin tam əksi model meydana gətirirdi. Bütün bu tədqiqatlar Darvinin güman etdiyi kimi təbiətdə qarşıdurma və qarışıqlıq olmadığını, çox həssas tarazlıqlar ilə hesablanmış “nizam” olduğunu göstərirdi.

8) Lalita Prasad Vidyarthi “Racism, Science and Pseudo-Science”, Unesco, France, Vendôme, 1983, səh. 54

9) Stephen Jay Gould “The Mismeasure Of Man”, New York:W. W. Norton and Company, 1981, səh. 72

10) Francis Darwin “The Life and Letters of Charles Darwin”, D. Appleton and Co, 1896, cild 2, səh. 294

11) Hans Ulrich Wehler “The German Empire”, səh. 179

12) Benjamin Farrington “What Darwin Really Said”, London: “Sphere Books”, 1971, səh.82

13) Stephen Jay Gould “Ontogeny and Phylogeny”, Cambridge, Mass: Harvard University press, 1977, səh. 127

14) Kenneth J.Hsü, “Is Darwinism Science?”, Eartwatch, mart 1989, səh. 15-17

15) Alaeddin Şenel, “Irk ve Irkçılık Düşüncesi”, Ankara: “Elm və sənət” nəşrləri, 1993, səh. 61

16) Herbert Spencer, “The Man Versus the State”, New York:1884-ci ildən, Gosset, Race, səh. 147-148

17) “A Look Back at Eugenics”, 1-ci cild, 3-cü nəşr, noyabr 96

18) Alaeddin Şenel, “Irk ve Irkçılık Düşüncesi”, Ankara: “Elm və sənət” nəşrləri, 1993, səh. 61

19) Thomas Gosset, Race: “The History of an Idea in America”, səh. 170

20) Benjamin Farrington “What Darwin Really Said”, London: “Sphere Books”, 1971, səh. 82

21) Kenneth J. Hsu, “Letter to the Editor”, Geology, aprel 1987, səh. 377

22) Süleyman Kocabaş “Hindistan Yolu ve Petrol Uğruna Yapılanlar” Türkiye ve İngiltere”, 1-ci nəşr, İstanbul:”Vətən” nəşr evi, 1985, səh. 231

23) Ahmet İhsan “Matbuat Hatıralarım”, İstanbul: “A. İhsan” nəşriyyat, 1931, səh.57

24) Sir Achmed Bartlet “Teselya Marekesinde”, “İkdam” nəşriyyat, Dersaadet, 1315, səh.12-13

25) Ragıp Üner, “Tarihte Türk-İngiliz İlişkileri”, “Hayat Tarih Mecmuası”, 1 sentyabr 1975, cild 2, nəşr 9, sıra No 129, “Doğan Kardeş” nəşriyyat, səh.26

26) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşr evi 1996, səh. 42

27) Erol Ulubelen “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat, sentyabr 1982, səh. 62

28) Erol Ulubelen “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat,1982, səh. 77

29) Erol Ulubelen, “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat, sentyabr 1982, səh. 210

30) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 285

31) Pierre Loti “Can Çekişen Türkiye”, tərcüməçi: R.C.H.Matbaai Hayriye ve Şürekâsi, 1329 (1913), səh. 108

32) Enver Ziya Karal “Birinci Meşrutiyet ve İstibdat Devirleri” 1876-1907, VIII cild, Atatürk dil və tarix təşkilatı, “Türk tarix təşkilatı” nəşriyyat, səh. 122-126

33) Frederick Burnaby “Küçük Asya Seyahatnamesi”, 1-ci nəşr, Sabah kitabları, iyun1998, səh. 74

34) Pierre Loti “Can Çekişen Türkiye”, tərcümə: R.C.H.Matbaai Hayriye ve Şürekâsi, 1329 (1913), səh. 60-61

35) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 34

36) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 33

37) Erol Ulubelen “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat, sentyabr 1982, səh. 185

38) Erol Ulubelen “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat, sentyabr 1982, səh. 210

39) Erol Ulubelen “İngiliz Gizli Belgelerinde Türkiye”, İstanbul: “Çağdaş” nəşriyyat, sentyabr 1982, səh. 215

40) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 107

41) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 117

42) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarih”, “Tekin” nəşriyyat, 1996, səh. 100-101

43) Paul C.Helmreich “Sevr Entrikaları, Büyük Güçler, Maşalar, Gizli Anlaşmalar ve Türkiyenin Taksimi”, tərcüməçi: Şerif Erol, 1-ci nəşr, mart 1996, səh. 147

44) Doğan Avcıoğlu “Milli Kurtuluş Tarihi”, “Tekin” nəşriyyat, 1996, səh. 35-36

45) Ali Naci Karacan “Lozan”, “Milliyet” nəşriyyat, Tarih dizisi 11, 2-ci nəşr, iyul 1971

46) Süleyman Kocabaş “Hindistan Yolu ve Petrol Uğruna Yapılanlar, Türkiye ve İngiltere”, 1-ci nəşr, İstanbul: “Vətən” nəşriyyat, 1985, səh. 231

47) Francis Darwin “The Life and Letters of Charles Darwin”, I cild, 1888. New York:D. Appleton and Company, səh.285-286

48. Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, Ankara:T.C. Mədəniyyət Nazirliyi nəşriyyatı, nəşr- 2068, 1998

49) Emin Oktay, Lise 2 Tarih Kitabı, İstanbul:”Atlas” kitab evi, 1990, səh. 45

50) Jean Paul Roux “Türklerin Tarihi”, “Milliyet” nəşriyyat, 5-ci nəşr, 1997, səh. 40

51) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, Ankara:T.C. Mədəniyyət Nazirliyi nəşriyyatı/2068, 1998, səh. 18

52) Enver Ziya Karal “Birinci Meşrutiyet ve İstibdat Devirleri 1876-1907”, VIII cild, Atatürk dil və tarix təşkilatı, “Türk tarix təşkilatı” nəşriyyat, səh. 553

53) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, Ankara:T.C. Mədəniyyət Nazirliyi nəşriyyat/2068, 1998, səh. 41

54) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, İstanbul: “Turan” nəşriytat və mətbəə, 1969, cild 1, səh. 182

55) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, cild 1, səh. 182

56) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, cild 2, səh. 138

57) Jean Paul Roux “Türklerin Tarihi”, “Milliyyət” nəşriyyat, 5-ci nəşr, 1997, səh.151

58) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, İstanbul: “Turan” nəşriyyat və mətbəə, 1969, cild 2, səh. 7

59) Aydın Taneri “Türk Askerliği ve Medeniyeti Hakkında Yabancıların Görüşleri”, “Milli Kültür” jurnalı, dekabr 1981, səh.15 (Voltaire “Türkler, Müslümanlar ve Ötekiler”, səh. 39-41)

60) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, İstanbul: “Turan” nəşriyyat və mətbəə, 1969, cild 2, səh. 187

61) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, Ankara:T.C. Mədəniyyət Nazirliyi nəşriyyatı/2068, 1998, cild 1, səh. 77 (Khalkokondylas, Paris tabı, səh. 29)

62) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh. 77 (Fransız tarihçisi Fernard Grenard, Paris 1938, səh. 52)

63) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, cild 1, səh. 77 (Oxford 1916, səh. 52)

64) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh. 105, 106, 107

65) N. M. Panzer, “The Harem”, Londra: 1936, səh. 237

66) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, Ankara: T.C. Mədəniyyət Nazirliyi nəşriyyat/2068, 1998, səh. 98

67) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh. 106

68) “Türkler İçin Ne Diyorlar?”, toplayan: Mutlu Altay, Türk mədəniyyəti tədqiqat institutu, Diyanət fondu İstanbul tədqiqat mərkəzi kitabxanası, səh. 23

69) Feridun Emecen, Kemal Beydilli, Mehmet İpşirli, Mehmet Akif Aydın, İlber Ortaylı, Abdülkadir Özcan, Bahaeddin Yediyıldız, Mübahat Kütükoğlu, “Osmanlı Devleti Medeniyeti Tarihi”, İstanbul: 1994, İslam tarix, sənət və mədəniyyət tədqiqat mərkəzi, səh. 467

70) “Hürriyet” qəzeti, 3 avqust 1962

71) Süleyman Kocabaş “Hindistan Yolu ve Petrol Uğruna Yapılanlar Türkiye ve İngiltere”, İstanbul:Vətən nəşriyyat, avqust 1985, səh. 165

72) Süleyman Kocabaş “Avrupa Türkiyesinin Kaybı ve Balkanlarda Panislavizm, İstanbul”: avqust 1986, səh. 32

73) Toktamış Ateş “Osmanlı Toplumunun Siyasal Yapısı (Kuruluş Dönemi)”, Say Kitap Pazarlama, səh. 116 (Richard Peters, “Geshichte der Türken”, səh. 8)

74) Prof.Dr.Nejat Göyünç “Osmanlı İmparatorluğu Hakkında Bazı Düşünceler”, Diyanət fondu, 1973, səh. 29 (Acta Orientalia Hungarica, XV, 173-82) (Bolqarıstan türklərinə və Rusçukdakı Türk əsərləri haqqında 1897-ci il tarixli hesabat, Eşref Eşrefoğlu, “Güneydoğu Avrupa Araştırmaları” jurnalı, sayı 1, səh. 19-36)

75) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, “Turan” nəşriyyat və mətbəə, İstanbul 1969, cild 2, səh. 190

76) “Türkler İçin Ne Diyorlar?”, toplayan: Mutlu Altay, Türk mədəniyyəti tədqiqat institutu, Diyanət fondu İstanbul tədqiqat mərkəzinin kitabxanası, səh. 11

77) “Türkler İçin Ne Diyorlar?” toplayan: Mutlu Altay, səh. 12

78) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, “Turan” nəşriyyat və mətbəə, İstanbul 1969, cild 2, səh. 122

79) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, cild 2, səh. 6

80) Emekli Korgeneral Hüseyin Işık “Yabancı Gözüyle Türkler ve Türk Ordusu”, Silahlı qüvvələr hərbi tarix və strateji araşdırma nazirliyi nəşriyyatı, Ankara: Silahlı qüvvələr nəşr evi, 1995, səh. 281

81) “Türkler İçin Ne Diyorlar?”, toplayan: Mutlu Altay, Türk mədəniyyəti tədqiqat institutu, Diyanət fondu İstanbul tədqiqat mərkəzi kitabxanası, səh. 18-19

82) “Türkler İçin Ne Diyorlar?”, toplayan: Mutlu Altay, səh. 20

83)”Türkler İçin Ne Diyorlar?”, toplayan: Mutlu Altay, səh. 21

84) Comte de Marsigli “Létat militaire de l'Empire Ottoman”, ses progres et sa décadece. La Haye, 1732, 1-ci cild, səh. 402.

85) Mouradgea dOhsson “Tableau général de l'Empire Ottoman”, Paris, 1791, 4-cü cild, səh.311

86) Michel le Syrien “Chronique Universelle”, Fransızcaya tercüme eden: J.B.Chabot. Paris, 1905, 3-cü cild, səh. 152. (Süryâni Mikâil Vakâyinâmesinin natamam türkcə tərcüməsi üçün, Türklük jurnalının may-iyun, avqust–sentyabr və dekabr 1939 ilə yanvar 1940-cı il tarixli sayılarına baxılmalıdır.)

87) Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, “Turan” nəşriyyat və mətbəə, İstanbul 1969, cild 2, səh. 125

88) Guer “Moeurs et usages des Turcs”, Paris, 1747, 2-ci cild, səh. 1

89) Prof.Dr.Osman Turan “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, İstanbul: “Turan” nəşriyyat və mətbəə, 1969, cild 2, səh. 126

90) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, T.C. Mədəniyyət Nazirliyi /2068, Ankara 1998, səh. 14 (Historie de l'Empire Ottoman, 1, Paris 1835, səh. 1-2)

91) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh. 14 (Apologie, Cenevrə 1629, səh. 6)

92) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh. 14 (Introductıon a l'Historie de l'Orient Musulman, Paris 1943, səh. 164)

93) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh.14 (Mehmed der Eroberer, Münih 1953, səh. 469)

94) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, səh.14 (Soliman, New York 1929, səh. 33)

95) “The Ottoman State and Its Place in World History” Leiden 1974, səh. 15

96) Yılmaz Öztuna “Osmanlı Devleti Tarihi-1”, “Siyasi Tarih”, T.C. Mədəniyyət Nazirliyi nəşriyyat/2068, Ankara 1998, səh. 14-15

97) “Tercüman”, 14 avqust 1987

98) Karl Marx-Friedrich Engels “Seçme Yazışmalar 1”, 1844-1869, 1-ci nəşr, Sol nəşriyyat, noyabr 1995

99) Karl Marx-Friedrich Engels “Seçme Yazışmalar 2”, 1870 - 1895, 1-ci nəşr, Sol nəşriyyat, oktyabr 1996, Ankara, tərcüməçi: Yurdakul Fincancı

100) Conway Zirkle “Evolution, Marxian Bıology and the Social Scene”, University of Pennsylvanıa Press, 1959, səh. 527

101) Conway Zirkle “Evolution, Marxian Biology and the Social Scene”, Philadelphia: The University of Pennsylvania Press, 1959, səh. 85-86

102) Tom Bethell “Burning Darwin to Save Marx”, Harper's Magazine, December 1978, səh. 31-38, 91-92

103) Friedrich Engels “Ütopik Sosyalizm-Bilimsel Sosyalizm”, Sol nəşriyyat, 1990, səh. 85

104) Marks-Engels “Seçme Yapıtlar 3”, Sol nəşriyyat, səh. 156

105) Friedrich Engels “Doğanın Diyalektiği”, Sol nəşriyyat, 1996, səh. 8

106) Henry Morris “The Long War Against God: The History and Impact of the Creation, Evolution, Conflict”, 8-ci nəşr, Michigan: Baker Book House, mart 1996, səh. 85

107) Alan Woods-Ted Grant, “Marxism and Darwinism”, Reason in Revolt: Markxism and Modern Science, London:1993

108) K. Mehnert “Kampf um Mao's Erbe, Deutsche Verlags-Anstalt”, 1977

109) Karl Marx Biyografi, “Öncü” nəşriyyat, səh. 368

110) Kent Hovind “The False Religion of Evolution”, http://www.hsv.tis.net/....ke4vol/evolve/ndxng.html (bu kitap yalnız internetdə yayımlanmışdır)

111) John N.Moore “The Impact of Evolution on the Social Sciences”, Impact No. 52, www.icr.org/pubs/imp/imp-52.htm

112) “The Darwin Debate, Marxism Today”, “Theoretical and Discussion Journal of the Communist Party”, London, cild 26, aprel 1982, səh. 20-22

113) Paul G.Humber “Hitler's Evolution Versus Christian Resistance”, Vital Articles on Science/Creation, www.icr.org/pubs/imp/imp-181.htm

114) Henry Morris “The Long War Against God: The History and Impact of the Creation, Evolution, Conflict”, 8-ci nəşr Michigan: Baker Book House, mart 1996, səh. 419

115) Samuel T. Francis “Sovyet Strategy of Terror”, səh. 54

116) V. İ. Lenin “Collected Works”, Moscow, cild 9, səh. 346

117) V. İ. Lenin “Collected Works”, Moscow, cild 35, səh. 238

118) “Pravda” qəzeti, 26 oktyabr 1918

119) Ann Arbor “Leon Troçki, Terörizm ve Komünizm”, University of Michigan, 1963, səh. 58

120) V.I. Lenin “Marks-Engels–Marksizm”, Ankara: Sol nəşriyyat, tərcüməçi: Vahap Erdoğdu, 1976, səh. 428

121) Sidney Fox, Klaus Dose, “Molecular Evolution and The Origin of Life”, New York: Marcel Dekker, 1977, səh. 2

122) Alexander I. Oparin “Origin of Life”, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196

123) “New Evidence on Evolution of Early Atmosphere and Life”, “Bulletin of the American Meteorological Society”, cild 63, noyabr 1982, səh. 1328-1330.

124) Stanley Miller “Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules”, 1986, səh. 7

125) Jeffrey Bada “Earth”, fevral 1998, səh. 40

126) Leslie E. Orgel “The Origin of Life on Earth”, Scientific American, cild 271, oktyabr 1994, səh. 78

127) Charles Darwin “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 189

128) Charles Darwin “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 184.

129) B. G. Ranganathan “Origins?”, Pennsylvania: “The Banner Of Truth Trust”, 1988.

130) Charles Darwin “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 179

131) Charles Darwin “The Origin of Species”, səh. 172, 280

132) Derek A. Ager “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133

133) Douglas J. Futuyma “Science on Trial”, New York: Pantheon Books, 1983, səh. 197

134) Solly Zuckerman “Beyond The Ivory Tower”, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389

135) J. Rennie “Darwin's Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992

136) Alan Walker “Science”, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co, 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

137) “Time”, noyabr 1996

138) S. J. Gould “Natural History”, cild 85, 1976, səh. 30

139) Solly Zuckerman “Beyond The Ivory Tower”, New York: Toplinger Publications, 1970, səh. 19

140) Richard Lewontin “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar, 1997, səh. 28.

141) Malcolm Muggeridge “The End of Christendom”, Grand Rapids: Eerdmans, 1980, səh. 43

ÇARLZ DARVİN

> **“Avropalı mədəni irqlər, yaşamaq uğrunda mübarizələrində türk barbarlığına qalib gəlmişdir.”**

— ÇARLZ DARVİN —

Darvinin təkamül nəzəriyyəsinin irqçiliklə əlaqəsi tez-tez gündəmə gətirilməsi ilə birlikdə,Darvinin öz ifadələri ilə türklərə göstərdiyi düşmənçilik çox az məlumdur.

Darvinizmin bu qaranlıq tərəfinin bizim üçün daha vacib tərəfi bu irqçiliyin xüsusilə də türk millətinə qarşı yönəldilmiş olmasıdır.

Darvin bu cəfəngiyatlarla həm Osmanlı imperiyasını hədəf alan 19-cu əsr imperialist dövlətlərinin, həm də türk millətinin mənəvi dəyərlərini yıxmaq istəyənlərin işinə yaramaqdadır.

Tarixin qaranlıqda qalmış bu böyük həqiqətini öyrənmək istəyənlər bu kitabı mütləq oxumalıdırlar.

MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.